Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 284 (8011) BAZAR, 16 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# Azərbaycanda güclü hərbi sənaye formalaşıb

## Respublikamız Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir

Son illər Azərbaycanda demokratik təsisatların möhkəmlənməsi, siyasi plüralizmin təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirilib. Dövlət və cəmiyyət həyatının bütün sahələrində fundamental dəyişikliklərin baş verdiyi ötən illər ərzində Azərbaycan xalqı həmişə öz liderinə güvənib, ona ən güclü dayaq olub.

### Dünyanın ən güclü 50 ordusundan biri

Dövlət başçısı İlham Əliyevin 15 illik prezidentlik fəaliyyətinin əsas qayəsində xalqa ləyaqətlə xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq, dövlətçiliyimizi hər vasitə ilə möhkəmləndirmək dayanıb. Cənab İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən bütün səy və bacarığını respublikamızın davamlı inkişafına, iqtisadi və hərbi qüdrətinin artmasına, mədəni və elmi cəhətdən tərəqqisinə sərf etməkdədir.

Prezident İlham Əliyevin milli maraqlara söykənən xarici siyasəti nəticəsində Azərbaycan müstəqil mövqeyi ilə seçilən dövlət kimi tanınıb, onun beynəlxalq nüfuzu getdikcə yüksəlib. Etiraf etmək lazımdır ki, bu gün dünya miqyasında heç də hər bir dövlət müstəqil xarici siyasət yürütmək iqtidarında deyil. Ancaq Azərbaycan müstəqil xarici siyasət yürüdən ölkə olaraq özünü dünya dövlətləri arasında tanıdıb. Dövlət başçısı tərəfindən yürüdülən çevik və prinsipial siyasət vasitəsilə xaricdən olan təzyiqlərin qarşısı alınıb, ölkəmiz ətrafında xoşməramlı əməkdaşlıq mühiti və daxili inkişaf üçün münbit zəmin yaradılıb.

Bu gün Azərbaycan dünya dövlətləri arasında irimiqyaslı layihələrin təşəbbüskarı və uğurlu icraçısı kimi tanınır. Belə ki, respublikamızda son illər aparılan uzaqgörən siyasət nəticəsində həyata keçirilən beynəlxalq əhəmiyyət kəsb edən irimiqyaslı layihələr - Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Avropanın enerji təhlükəsizliyində böyük rol oynayacaq "Cənub qaz dəhlizi" və onun tərkib hissəsi olan TANAP layihəsi, eləcə də TAP layihəsi, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması və digər bu qəbildən olan işlər bunun bariz nümunəsidir. Vurğulamaq yerinə düşərdi ki, bütün bu sadalanan misilsiz uğurlar ulu öndər Heydər Əliyev siyasətinin təntənəsidir.

Dövlət başçısı respublikamızın sürətli inkişafından, qazanılan nailiyyətlərdən bəhs edərkən həmişə böyük fəxrlə bildirir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Şübhəsiz, bu cür qarşılıqlı inam şəraitində Prezident İlham Əliyev hələ uzun illər xalqı öz arxasınca daha yüksək zirvələrə və böyük qələbələrə doğru aparacaq.

Ötən 15 ildə dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə respublikamızda digər sahələrlə yanaşı, Silahlı Qüvvələrin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilib. Məhz görülmüş işlər sayəsində, bu gün beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri hazırda dünyanın ən güclü 50 ordusu sırasında yer tutur. Bakıda keçirilən və birbaşa yayımla nümayiş etdirilən hərbi paradlar bu həqiqəti bir daha təsdiqlədi.

### Azərbaycanın hərbi sənaye kompleksi davamlı təkmilləşir

Azərbaycan Ordusu öz gücünü və döyüş qabiliyyətini hələ iki il öncə - 2016-cı ilin aprelində həm düşmənə, həm də dünyaya nümayiş etdirdi. Azərbaycan tarixinə şanlı səhifələrdən biri kimi daxil olmuş Aprel döyüşlərində qüdrətli ordumuz Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərinin bir qismini işğalçılardan təmizləyərək böyük bir əraziyə nəzarəti ələ aldı. Bu döyüşlərin ən mühüm yekunu Lələtəpə yüksəkliyinin azad olunması və bununla da Cocuq Mərcanlı kəndinin təhlükəsizliyinin təmin edilməsi oldu.

Ardı 3-cü səh.



# İdmanın yüksəlişi Azərbaycanın ümumi inkişafından qaynaqlanır

**Prezident İlham ƏLİYEV:**

"Hər bir möhtəşəm qələbə cəmiyyətimizin vətənpərvərlik ruhunu artırır, Azərbaycanı dünyada güclü idman ölkəsi kimi tanıtdırır, Azərbaycanı təbliğ edir"

**Azərbaycanda idmanın inkişafı naminə həyata keçirilən tədbirlər dövlətin yürütdüyü daxili siyasətin üstün istiqamətlərindəndir. Bu sahə bir çox cəhətdən xüsusi əhəmiyyət kəsb edir. Əvvəla, məlum olduğu kimi, idman yeni sağlam nəslin yetişdirilməsində müstəsna rol oynayır. Eyni zamanda idman gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması işində böyük əhəmiyyət kəsb edir.**

Bununla yanaşı, idman ölkənin dünyada tanıdılmasına, dövlətin beynəlxalq aləmdə nüfuzunun artmasına yardımçı olur. Ümummilli lider Heydər Əliyevin vaxtilə qeyd etdiyi kimi: "İdman, bədən tərbiyəsi xalqın sağlamlığı ilə bağlı olan mühüm sosial sahədir. Azərbaycan bayrağı dünyada, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycanın dövlət başçısı hər hansı ölkəyə gələrkən və bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən baş verir. Azərbaycan himni səslənir, dövlət bayrağı qaldırılır".

Artıq Azərbaycan idman ölkəsi kimi beynəlxalq aləmdə yetərincə nüfuz qazanmışdır. Amma o da məlumdur ki, hər hansı möcüzə baş verməmiş, sadəcə olaraq dövlət rəhbərliyi və səlahiyyətli orqanlar məqsədyönlü fəaliyyət göstərmiş və beləliklə, arzuolunan nəticə əldə edilmişdir. Onu da yaddan çıxarmaq olmaz ki, Azərbaycan idmanının inkişafı ölkənin hərtərəfli inkişafından, dövlətin ümumi gücündən qaynaqlanır, çünki hər hansı zəif ölkənin ayrıca götürülmüş bir sahədə inkişaf etməsini təsəvvür etmək çətindir.

İdmanın yüksəlişində Milli Olimpiya Komitəsi (MOK) lokomotiv rolu oynamışdır. 1997-ci ildə MOK-un prezidenti seçilmiş cənab İlham Əliyev idmanın inkişafını daim diqqət mərkəzində saxlamış, idmançıların hamisi və dostu kimi bütövlükdə cəmiyyətin hörmətini qazanmışdır.

Ardı 6-cı səh.

# Rusiya Azərbaycanın əsas iqtisadi və ticarət tərəfdaşlarındandır

## Moskvada Azərbaycan-Rusiya iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının iclası keçirilib

"Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və birgə səyləri nəticəsində ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və dövlət başçılarının qarşılıqlı səfərləri və müntəzəm görüşləri dövlətlərarası münasibətlərə yüksək dinamizm gətirir".



Bu fikirləri iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycanla Rusiya arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının dekabrın 14-də Moskvada keçirilən 17-ci iclasında söyləyib. İclasda dövlət komissiyasının həmsədrləri - Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayevin və Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkinin rəhbərlik etdiyi nümayəndə heyətləri iştirak ediblər.

İclasdan əvvəl Şahin Mustafayev rusiyalı həmkarı Maksim Oreşkinlə görüşüb. Görüşdə Azərbaycan-Rusiya iqtisadi-ticarət əlaqələrinə və əməkdaşlıq perspektivlərinə dair müzakirələr aparılıb. Sonra dövlət komissiyasının 17-ci iclası öz işinə başlayıb. Azərbaycan-Rusiya əlaqələrindən söz açan Şahin Mustafayev qeyd edib ki, Prezident İlham Əliyevin bu ilin sentyabrında Rusiyaya səfəri zamanı 16 sənəd imzalanıb. Rusiya Prezidenti Vladimir Putin isə bu ilin sentyabrında ölkəmizdə səfərdə olub. Bu səfər çərçivəsində dövlət başçılarının iştirakı ilə 9-cu Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib.

Ardı 5-ci səh.

# "Cənub qaz dəhlizi"nin ehtiyat mənbəyi

## "Şahdəniz-2" layihəsi üçün yekun investisiya qərarının verildiyi vaxtdan 5 il keçir

"Cənub qaz dəhlizi"nin ehtiyat mənbəyi olan "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi üçün yekun investisiya qərarının verilməsindən 5 il keçir. Ötən müddət ərzində layihə nəzərdə tutulduğu qaydada irəliləyib və artıq yarım ildən çoxdur ki, "Şahdəniz-2" qazı genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri (CQBK) vasitəsilə TANAP-a (Transanadolu Qaz Boru Kəməri) ötürülür.

"Şahdəniz-2" çərçivəsində ildə 16 milyard kubmetr qaz hasil ediləcəyi gözlənilir. Bunun 6 milyard kubmetri Türkiyəyə, 10 milyard kubmetri Avropaya nəql olunacaq. Ümumilikdə isə "Şahdəniz" 1,2 trilyon kubmetr qaz, 240 milyon tondan çox kondensat ehtiyatı olan nəhəng yataqdır. Azərbaycan 2006-cı ildən etibarən yatağın işlənməsinin birinci mərhələsində Gürcüstana, 2007-ci ildən Türkiyəyə qaz ixrac edir. İkinci mərhələdə Azərbaycan qazını dünya bazarlarına aparan yollar xeyli şaxələnəcək. "Şahdəniz-2" layihəsini yüksək dəyərləndirən Prezident İlham Əliyev 2013-cü il dekabrın 17-də yekun investisiya qərarı verilərkən demişdir: "Bu layihə regionun və Avropanın enerji xəritəsini dəyişdirəcəkdir. Azərbaycanın qaz ehtiyatları bu sərvəti gözləməkdə olan bazarlara nəql ediləcəkdir. Bizim hesablamalarımıza görə, Azərbaycanın qaz ehtiyatı 3 trilyon kubmetrə bərabərdir".

Odur ki, "Şahdəniz-2"ni "XXI əsrin layihəsi" adlandırırlar. Mütəxəssislər bu layihəni bir neçə amilə görə önəmli sayırlar. Əvvəla, ilk dəfədir Azərbaycan və onun timsalında bütün region belə nəhəng miqyaslı bir layihə reallaşdırıb.

Ardı 3-cü səh.



## Qazaxıstan Respublikasının Prezidenti zati-aliləri cənab Nursultan Nazarbayevə

Hörmətli Nursultan Abişeviç!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Qazaxıstan müstəqillik illərində hərtərəfli və sabit inkişaf yolu ilə irəliləyərək dövlətçiliyin möhkəmləndirilməsi, ölkənin iqtisadi tərəqqisi, xalqın rifahının yaxşılaşdırılması sahəsində mühüm uğurlar qazanmışdır. Ölkəniz beynəlxalq və regional təşkilatlarda fəal rola və nüfuza malikdir.

Əminəm ki, Azərbaycan ilə Qazaxıstan arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafı bundan sonra da ortaq tarixi köklərə, milli, mənəvi dəyərlərə malik xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Hörmətli Nursultan Abişeviç, belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qazaxıstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2018-ci il*

## Bəhreynin Kralı Əlahəzrət Şeyx Həməd bin İsa Al Xəlifəyə

Əlahəzrət!

Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Bəhreyn əlaqələri daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Bəhreyn xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2018-ci il*

## Azərbaycan Respublikası müdafiə sənayesi işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası müdafiə sənayesinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Müfid-Zadə Röfət Həmid oğlu

**"Tərəqqi" medalı ilə**

Abdurəhmanov Nizami Əli oğlu
Cəlilov Mahir Fikrət oğlu
Əliyev Abil Qədim oğlu
Əliyev Elmar Arif oğlu
Hüseynov İftixar Hüseyn oğlu
Quliyev Soltan Ələsgər oğlu
Məsimov Yaqub İsmayıl oğlu
Tağıyev Mirmusa Mirtağı oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Əliyev Nadir Əli oğlu
Əmirov Xasay Yaşa oğlu
Şahbazov Ramin Tofiq oğlu

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2018-ci il*

## Azərbaycan Respublikası müdafiə sənayesi işçilərinə fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müdafiə sənayesində uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar dövlət qulluqçusu"**

Zeynalov Vaqif Əziz oğlu

**"Əməkdar mühəndis"**

Məmmədov Sədrəddin Abbas oğlu
Virskiy İqor Sergeyeviç

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 dekabr 2018-ci il*

# Baş nazir Novruz Məmmədov xalq rəssamı Tahir Salahovun 90 illik yubileyinə həsr edilən sərgi ilə tanış olub



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov dekabrın 15-də Bakı Ekspo Mərkəzində Azərbaycanın və SSRİ-nin xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı, dünya şöhrətli rəssam Tahir Salahovun 90 illik yubileyinə həsr edilən sərgi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, Baş nazir Novruz Məmmədova sərgi barədə məlumat verildi.

Bildirildi ki, sərginin ekspozisiyasında Tahir Salahovun şəxsi kolleksiyasından, Azərbaycan Milli İncəsənət Muzeyinin, Azərbaycan Xalça Muzeyinin və Azərbaycan Dövlət Rəsm Qalereyasının fondlarından seçilmiş 80-dək xalça, 40-dək rəngkarlıq və rəsm əsəri, həmçinin 350-dək fotoşəkil nümayiş olunur. Ekspozisiyanın sahəsi dörd min kvadratmetrdir. Burada rəssamın yaradıcılığının bütün dövrlərinə aid əsərləri yer alıb.

Ümummilli lider Heydər Əliyevin Tahir Salahovla dostluq münasibətləri olub. Tahir Salahovun çoxşaxəli yaradıcılığı, məhsuldar ictimai fəaliyyəti xalqımız və dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilib. O, müstəqil Azərbaycan Respublikasının ən ali təltiflərinə - 1998-ci ildə "İstiqlal", 2008-ci ildə "Heydər Əliyev" ordenlərinə, 2015-ci ildə Heydər Əliyev mükafatına layiq görülüb. Dünya şöhrətli rəssam 90 illik yubileyi ərəfəsində Prezident İlham Əliyev tərəfindən Azərbaycan təsviri sənətinin inkişafında xüsusi xidmətlərinə görə 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.

Böyük sənətkar və tanınmış ictimai xadim olan Tahir Salahov müasir rəssamlıq məktəbinin görkəmli nümayəndəsi kimi uzunmüddətli, səmərəli və bənzərsiz yaradıcılığı ilə zəngin mədəniyyət salnaməmizə yeni səhifələr yazıb. O, eyni zamanda, milli sənət xəzinəmizin qızıl fondunda özünə həmişəlik layiqli yer tutan əsərləri ilə Azərbaycan təsviri sənətinə dünyada geniş şöhrət qazandırıb.

Tahir Salahov həm də Azərbaycan incəsənətinin çoxəsrlik ənənələrini Avropa boyakarlıq məktəbinin nailiyyətləri ilə birləşdirib. Onun mövzu, forma, janr əlvanlığı və estetik kamilliyi ilə seçilən ecazkar rəsmləri ülvi bəşəri dəyərlər və ali məqsədlər naminə humanist fikirləri təlqin edir.

# Fövqəladə Hallar Nazirliyinin yaradılmasının 13-cü ildönümü qeyd olunub




Fövqəladə Hallar Nazirliyinin (FHN) yaradılmasının 13-cü ildönümü münasibətilə dekabrın 15-də nazirlikdə geniş kollegiya iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, əvvəlcə Fövqəladə Hallar Nazirliyinin rəhbərliyi və əməkdaşları Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsi anılıb, məzarları üzərinə gül, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

İclası açan fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov FHN-in yaradılmasının 13-cü ildönümü və peşə bayramı münasibətilə şəxsi heyəti təbrik edib, onlara uğurlar arzulayıb.

Kəmaləddin Heydərov bildirib ki, ötən müddət nazirliyin kollektivi üçün əlamətdar olub. FHN-in yarandığı 13 il ərzində əldə etdiyimiz bütün nailiyyətlər ümummilli lider Heydər Əliyevin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin adı ilə bağlıdır. Ötən illər ərzində FHN dövlət başçısının diqqət və qayğısı ilə əhatə olunub. Nazirliyimizin bugünə qədər əldə etdiyi ən böyük nailiyyət dövlət başçısının etimadını doğrultması, xalqın etibarını qazanmasıdır.

Qeyd olunub ki, cari ildə FHN qurumlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər davam etdirilib. Hesabat dövründə də nazirlik insanlarımızın həyat təhlükəsizliyinin qorunması sahəsində öz fəaliyyətini uğurla davam etdirib. Həmişə olduğu kimi, yanğından mühafizə sahəsində əməliyyat şəraiti diqqət mərkəzində saxlanılıb. Yanğın hadisələrinin qarşısı çevik şəkildə alınaraq yayılmasına və ağır fəsadlarla nəticələnməsinə imkan verilməyib.

Əvvəlki illərdə olduğu kimi, cari ilin ötən dövründə də Fövqəladə Hallar Nazirliyinin ölkə əhalisinin həyat təhlükəsizliyinin, dövlət əmlakının və fərdi mülkiyyətlərin təhlükəsizliyinin qorunması sahəsində öz fəaliyyətini uğurla davam etdirdiyini bildirən nazir maddi-texniki bazanın möhkəmləndirilməsi, kadrların peşəkarlığının artırılması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində görülmüş işlər barədə ətraflı məlumat verib. O, eyni zamanda, yanğından mühafizə sahəsində əməliyyat şəraitinin daim diqqət mərkəzində saxlanıldığını, yanğın hadisələrinin qarşısının çevik surətdə alınaraq yayılmasına və ağır fəsadlarla nəticələnməsinə imkan verilmədiyini konkret faktlarla əsaslandırıb.

Vurğulanıb ki, Azərbaycan Prezidentinin hər il dekabrın 16-sı Fövqəladə Hallar Nazirliyi işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə 2006-cı ildə imzaladığı sərəncam FHN-ə və onun kollektivinə dövlət qayğısının bariz nümunəsidir. Nazir deyib: "FHN-in şəxsi heyəti həmişə olduğu kimi, ölkə rəhbərliyinin qarşıya qoyduğu vəzifələri daha yüksək keyfiyyətlə, operativ və sədaqətlə yerinə yetirəcək. Fövqəladə Hallar Nazirliyinin fəaliyyətinə hər zaman verdiyi yüksək qiymətə, göstərdiyi ali diqqət və qayğıya görə nazirliyin bütün şəxsi heyəti adından Prezident, Ali Baş Komandan İlham Əliyevə dərin təşəkkürümüzü bildiririk. Azərbaycan Prezidentini əmin edirəm ki, ölkə əhalisinin və ərazilərin təhlükəsizliyinin təmin olunması, maddi və mədəni sərvətlərimizin qorunması, vətəndaşlarımızın firavan həyat və fəaliyyətinin davam etdirilməsi kimi şərəfli vəzifənin yerinə yetirilməsi üçün bundan sonra da bütün qüvvə və bacarıqlarımızı səfərbər edəcəyik. Ali Baş Komandanın əmr və tapşırıqlarını yerinə yetirməyə hər an hazır olacağıq. Nazirliyin şəxsi heyəti həmişə olduğu kimi, ölkə rəhbərliyinin qarşımızda qoyduğu vəzifələri daha yüksək keyfiyyətlə, daha operativ və daha böyük sədaqətlə yerinə yetirəcəkdir".

Sonra nazirliyin bir qrup əməkdaşına ali hərbi rütbələrin, orden və medalların, fəxri adların verilməsi haqqında Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar oxunub. Prezidentin ötənilki sərəncamlarına əsasən təltif olunan bir qrup əməkdaşa mükafatlar təqdim edilib. Həmçinin FHN-in xidmətdə fərqlənən əməkdaşları da nazirin əmri ilə təltif olunublar.

Sonda tədbir iştirakçıları adından Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul edilib.

## Milli Məclisin Sədri Gürcüstanda səfərdə olacaq

Dekabrın 16-da Milli Məclisin Sədri Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti Gürcüstanın yeni seçilmiş Prezidenti xanım Salome Zurabişvilinin andiçmə mərasimində iştirak etmək üçün bu ölkənin Telavi şəhərinə səfər edəcək.

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinin tərkibinə Milli Məclisin Gürcüstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əflatun Amaşov, qrupun üzvü, deputat Hikmət Məmmədov və digər rəsmi şəxslər daxildir.

Parlamentin sədri inauqurasiya mərasimində ölkənin yeni seçilmiş Prezidentini təbrik edəcək, ona gələcək fəaliyyətində uğurlar arzulayacaq.

Səfər dekabrın 17-də başa çatacaq.

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Tbilisidə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan konfrans və sərgi keçirilib

Heydər Əliyev Fondunun və ölkəmizin Gürcüstandakı səfirliyinin təşkilatçılığı ilə Tbilisidə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmiş "Şərqin birinci dünyəvi parlamentli respublikası: dəyərlər və irs" adlı elmi konfrans, sərgi və rəsmi qəbul keçirilib. AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları - Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, səfir Dursun Həsənov və digər rəsmi şəxslər əvvəlcə Tbilisinin mərkəzindəki Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət ediblər. Sonra nümayəndə heyəti Tbilisidəki Botanika bağında olub, buradakı köhnə müsəlman qəbiristanlığında Azərbaycan Xalq Cümhuriyyəti qurucularının məzarlarını ziyarət ediblər.

Konfransda çıxış edən səfir Dursun Həsənov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun Azərbaycanda və ölkəmizin hüdudlarından kənarda müxtəlif sahələri əhatə edən fəaliyyəti barədə məlumat verib. O, Heydər Əliyev Fondunun Gürcüstan ilə mədəni əlaqələrin inkişaf etdirilməsinə önəm verdiyini, bu ölkədə bir sıra elm və mədəniyyət tədbirləri həyata keçirdiyini vurğulayıb.

Diplomat bildirib ki, Azərbaycan 100 il bundan əvvəl məhz Tbilisidə Şərqdə ilk demokratik respublika elan edib. Bugünkü respublikamız Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Ölkəmizin tərəfdar çıxdığı demokratiya, dünyəvilik, dini və mədəni müxtəliflik kimi dəyərlər bizə xalq cümhuriyyətindən miras qalıb.

Səfir vurğulayıb ki, vaxtilə Azərbaycan Xalq Cümhuriyyəti qurucularının Azərbaycan xalqının rifahı naminə həyata keçirmək istədiyi, amma sovet işğalının imkan vermədiyi ideyalar bu gün müstəqil respublikamız tərəfindən ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu daxili və xarici siyasət kursu sayəsində uğurla reallığa çevrilir.

Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində bu gün Azərbaycan nəinki Cənubi Qafqazda, dünyada nüfuzlu dövlət kimi öz mövqelərini möhkəmləndirib və inkişaf edir. Gürcüstan ilə birgə həyata keçirilən irimiqyaslı enerji və nəqliyyat layihələri ölkələrimizin əməkdaşlığının önəmini daha da artırır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan səfir Gürcüstanın münaqişənin ədalətli və beynəlxalq hüquqa söykənən həllini dəstəklədiyini bildirib. Vurğulayıb ki, Dağlıq Qarabağ və ətraf rayonların Azərbaycanın ərazisi olması faktını işğalçı Ermənistan nəhayət ki qəbul etməlidir.



Gürcüstanın təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Levan Xaratişvili çıxışında Azərbaycanın keçdiyi böyük inkişaf yolunun şahidi olduğunu deyib. O, ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə, o cümlədən elm və təhsil sahəsində də uğurla inkişaf etdiyini vurğulayıb. Bu gün gürcü tələbələrin Azərbaycan universitetlərində, azərbaycanlı tələbələrin isə Gürcüstan universitetlərində təhsil aldıqlarını söyləyib.

Levan Xaratişvili təmsil etdiyi nazirliyin rəhbərliyi və kollektivi adından Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə xalqımızı təbrik edib.

Gürcüstan Milli Elmlər Akademiyasının (GMEA) prezidenti, akademik Giorgi Kvesitadze ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə dinamik inkişaf etdiyini vurğulayıb. Bildirib ki, Cənubi Qafqazın iki aparıcı dövləti olan Azərbaycan ilə Gürcüstanın birgə reallaşdırdığı enerji və nəqliyyat layihələri xalqlarımızın rifah halının daha da yaxşılaşmasına xidmət edir. O, münasibətlərimizin daha da genişlənməsində və möhkəmlənməsində elm adamlarının üzərinə mühüm vəzifələr düşdüyünü deyib.

Tarix elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun şöbə müdiri İlqar Niftəliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının tarixi, onun ənənələri, o dövrə xas olan yeniliklər barədə məlumat verib. Xalq cümhuriyyətinin nümayəndə heyətinin Paris Sülh Konfransında fəaliyyətindən, cümhuriyyətin tanınması istiqamətində görülən işlərdən danışıb. İlqar Niftəliyev Paris Sülh Konfransında Millətlər Liqasının Azərbaycan Xalq Cümhuriyyətini de-fakto tanımasından sonra səfirliklərin açıldığını diqqətə çatdırıb.

Heydər Əliyev Mərkəzinin direktorunun müşaviri Rəşad Kərimov ümummilli lider Heydər Əliyevin uğurlu siyasəti sayəsində müstəqilliyimizin qorunub saxlandığını və möhkəmləndiyini vurğulayıb. O, müasir Azərbaycan Respublikası ilə Azərbaycan Xalq Cümhuriyyətini müqayisəli təhlil edib, hər iki dövrdə müstəqilliyimizin çətin əldə edildiyini diqqətə çatdırıb.

AMEA-nın Tarix İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə doktoru Lamiyə Qafarzadə məruzəsində Azərbaycan Xalq Cümhuriyyətinin mədəniyyət, təhsil sahəsində qazandığı uğurlar, habelə ölkədə insan haqlarının bərabərləşdirilməsi məsələlərini diqqətə çatdırıb. O, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin milli tərkibini, onun həqiqətən demokratik xarakter daşımasını xatırladıb.

GMEA-nın üzvü Ramaz Xurodze Gürcüstan arxivlərində saxlanılan materialların sona qədər tədqiq olunmadığını bildirib və hər iki ölkənin alimlərinin şanlı tariximizi birgə araşdırmalarının vacibliyini vurğulayıb.

Konfransda Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən bəhs edən film nümayiş olunub.

Tədbir çərçivəsində Heydər Əliyev Fondu tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan sərgi təşkil edilib. Sərgidə Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair foto və sənədlər, video və audiomateriallar nümayiş etdirilib.

Heydər Əliyev Fondunun və Azərbaycanın Gürcüstandakı səfirliyinin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə rəsmi qəbul da keçirilib.

Səfir Dursun Həsənov çıxış edərək müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi və fəaliyyəti dövründə əldə etdiyi nailiyyətlər barədə məlumat verib. Qeyd edib ki, cəmi 23 ay ömrü olan respublika qısa müddətdə ciddi uğurlara imza atıb, dünyanın aparıcı dövlətləri ilə diplomatik münasibətlər qurub, qadınlara ilk dəfə seçki hüququ verib. Diplomat 1991-ci ildə müstəqilliyini bərpa edən respublikamızın bu gün dünyada uğurlu daxili və xarici siyasət yürüdən, inkişaf edən demokratik dövlət kimi tanındığını vurğulayıb.

Gürcüstanın xarici işlər nazirinin müavini Laşa Darsalia tədbir iştirakçılarını və xalqımızı Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə təbrik edib. O, 100 il əvvəl Şərqdə ilk demokratik respublikanın qurulmasını mühüm tarixi hadisə kimi səciyyələndirib. Qeyd edib ki, Azərbaycan ilə Gürcüstan arasında təkcə enerji üzrə deyil, təhsil, mədəniyyət, hərbi və digər sahələrdə də münasibətlər inkişaf edir. İkitərəfli diplomatik əlaqələrə nəzər salan nazir müavini ölkəsinin Azərbaycan ilə bütün sahələrdə əməkdaşlığının səviyyəsindən məmnunluğunu bildirib və bu əlaqələrin daha da genişlənəcəyinə ümid etdiyini vurğulayıb.

Qeyd edək ki, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 2018-ci ildə Fransa, Polşa, İtaliya, Vatikan, Almaniya və Böyük Britaniyada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik tarixinə həsr olunan sərgi və elmi konfranslar keçirilib.

# Azərbaycanda güclü hərbi sənaye formalaşıb

## Respublikamız Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir

*Əvvəli 1-ci səh.*

2018-ci ilin mayında isə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Günnüt kəndi düşməndən azad edildi, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirildi.

Son iki döyüşdə ordumuz əlverişsiz mövqelərdən çıxaraq strateji mövqelərə sahib oldu. Bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verir ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edək və istədiyimiz tədbiri görə bilək. Qeyd etmək yerinə düşərdi ki, həmin döyüşlərdə Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan müdafiə təyinatlı məmulatlardan geniş istifadə olundu. Düşmənin canlı qüvvəsinin və döyüş texnikalarının yerinin müəyyən edilərək məhv edilməsində yeni növ milli müdafiə təyinatlı məhsullar mühüm rol oynadı.

Ərazisinin böyük bir qismi düşmən tapdağında olan və müharibə vəziyyətində yaşayan respublikamızın Silahlı Qüvvələrinin maddi-texniki bazasını milli məhsullar hesabına daha da gücləndirmək məqsədilə 2005-ci ildə respublika Prezidentinin müvafiq sərəncamı ilə yaradılan Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində silah-sursat və hərbi vasitələrin istehsalının genişləndirilməsi və keyfiyyətinin daha da yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Aparılan məqsədyönlü işlərin nəticəsi olaraq demək olar ki, Azərbaycanın hərbi sənaye kompleksi artıq formalaşıb. Bu gün Azərbaycan Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir. Ölkəmizdə son illərdə formalaşan və dinamik templə inkişaf edən hərbi sənaye hesabına hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar, müxtəlif növ döyüş sursatları istehsal olunur. Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan hərbi təyinatlı məhsullarla Azərbaycan öz ordusunu əhəmiyyətli dərəcədə təchiz edə bilir.

Ölkənin sənaye infrastrukturunun inkişafı ilə bağlı təsdiq olunmuş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda və "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulmuş tədbirlərin icrası istiqamətində Müdafiə Sənayesi Nazirliyi tərəfindən müvafiq ardıcıl tədbirlər həyata keçirilir.

### Müdafiə təyinatlı məmulatların həcmi 33 dəfə artıb

Müdafiə Sənayesi Nazirliyi fəaliyyətə başladığı gündən ilkin mərhələdə qarşıya qoyulmuş hədəflərə, əsasən, nail olmuşdur. Ötən dövrdə nazirliyin müəssisələrində ən müasir texnologiya və avadanlıqlarla təchiz olunan 50-dən çox yeni istehsal sahəsi yaradılmışdır. Yeni yaradılan müəssisə və istehsal sahələrində ümumi sahəsi 284 min kvadratmetrlik tikinti və yenidənqurma, 530 min kvadratmetr sahədə abadlaşdırma işləri aparılmışdır. İstehsal sahələrində müasir tələblərə cavab verən rəqəmsal, proqram təminatlı 25-dən çox mürəkkəb texnoloji xətt və avadanlıqlar quraşdırılmışdır. Eləcə də 2200-dən çox müxtəlif təyinatlı dəzgah, 10 minlərlə cihaz, alət və tərtibatlar alınıb istismara verilmişdir.

2018-ci ildə ümumi məhsul istehsalının həcmi 2007-ci illə müqayisədə 6,8 dəfə, müdafiə təyinatlı məmulatların həcmi isə 33 dəfə artmışdır. İstehsal olunan ümumi məhsulun 80 faizdən çoxu müdafiə, xüsusi təyinatlı məmulatlardır. Son illərdə isə bu nisbət 90 faizi keçmişdir. İstehsalı mənimsənilən müdafiə təyinatlı məmulatların çeşidlərinin sayı 1200-ü keçmişdir.

Nazirlik fəaliyyətə başladığı gündən ümumilikdə 251 mövzu üzrə müdafiə təyinatlı məmulatların yaradılması işləri aparılmışdır. Onlardan Müdafiə Nazirliyi və digər güc strukturlarının tələbatına uyğun 138 mövzu üzrə 370 adda müdafiə təyinatlı məmulatların yaradılma işləri başa çatdırılmış və silahlanmaya tövsiyə olunmuşdur. Məmulatların yaradılması zamanı 344 müxtəlif növ sınaqlar keçirilmişdir. Hazırda müəssisələrdə 113 adda müdafiə təyinatlı məmulatın yaradılması istiqamətində təcrübi-konstruktor işləri davam etdirilir.

Ötən illərdə olduğu kimi, bu il də yeni nəsil silah növlərinin yaradılması və istehsalı ilə bağlı dövlət başçısının verdiyi tapşırıqların icrası istiqamətində məqsədyönlü işlər davam etdirilmişdir. Belə ki, nazirliyin müəssisələrində yaradılan və sınaqları keçirilərək silahlanmaya tövsiyə olunan











7,62x51 millimetrlik xüsusi təyinatlı "Yalquzaq" snayper tüfənginin, 7,62x54 millimetrlik xüsusi təyinatlı əl pulemyotunun, 30 millimetrlik avtomatik qumbaraatan kompleksinin, 40x46 millimetrlik əl qumbaraatanı və onun 4 növ atəş yığımlarının, F-1 tipli təlim əl qumbarasının, M-6, M-12 tipli mina partladıcıların və sair məmulatların cari ildə seriyalı istehsalı aparılmışdır. Eləcə də ixrac istiqamətində istehsal həcminin artması ilə əlaqədar yeni texnologiya əsasında istehsal xətti qurulmuş və pulemyotlar üçün 100 və 200 yerlik patron lent və qutularının kütləvi istehsalı təmin edilmişdir.

### Onlarla ölkəyə Azərbaycan istehsalı olan hərbi məhsullar ixrac edilir

Müdafiə Nazirliyi və digər güc qurumlarının dəvəti ilə respublikamızda səfərdə olan xarici nümayəndə heyətlərinin mütəmadi olaraq Müdafiə Sənayesi Nazirliyinin müəssisələrinə ziyarətləri təşkil edilir. Bu ziyarətlər zamanı nümayəndə heyətlərinə nazirliyin müəssisələrində yaradılan və istehsal olunan müdafiə təyinatlı məmulatlarla tanış olmaq və istehsal prosesini yaxından izləmək fürsəti yaradılır. Nazirliyin müəssisələrində yaradılan və istehsal olunan məmulatlar nümayəndə heyətləri tərəfindən hər zaman böyük maraqla qarşılanır.

Ölkə sənayesinin dayanıqlı inkişafının təmin edilməsinin əsas istiqamətlərindən olan ixrac potensialının genişləndirilməsi və idxalın yerli istehsalla əvəzlənməsi üzrə nazirlikdə məqsədyönlü işlərə başlanılmışdır. Artıq nazirliyin müəssisələri beynəlxalq bazarlara çıxaraq müxtəlif tenderlərin qalibi olmuşlar. Bu da öz növbəsində istehsal olunan məmulatların keyfiyyətini və beynəlxalq standartlara uyğunluğunu təsdiq edən əsas şərtlərdəndir. Nəticədə müxtəlif növ müdafiə təyinatlı məmulatların ixracı üzrə müqavilələr bağlanmış və icrasına başlanılmışdır. Bu gün Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan müxtəlif növ döyüş sursatlarının, müasir atıcı və artilleriya silahlarının, zirehli texnikaların, xüsusi təyinatlı patrul maşınının və digər məmulatların ixracı həyata keçirilir. Hazırda onlarla ölkəyə Azərbaycan istehsalı olan hərbi məhsullar ixrac edilir. 2017-ci illə müqayisədə bu il ixrac edilmiş məmulatların həcmində 9,2 faiz artım olmuşdur.

Böyük qürur hissi ilə deyə bilərik ki, Müdafiə Sənayesi Nazirliyi tərəfindən yaradılan və istehsal onunan hərbi təyinatlı məmulatlar Azərbaycan Silahlı Qüvvələri ilə yanaşı, bir sıra xarici ölkələrin ordularının da silahlanmasına qəbul edilir. Vurğulamaq lazımdır ki, istehsal olunan rəqabətədavamlı məhsulların dünya bazarına çıxarılmasına əsas zəmin yaradan amillər nazirliyin müəssisələrinin beynəlxalq standartlara cavab verə biləcək məhsul istehsal etmək potensialına malik olması və yüksəkixtisaslı kadrlarla təmin edilməsidir.

### "ADEX-2018"də 29 ölkədən 224 şirkət iştirak etdi

Dövlət başçısının tapşırığına əsasən Müdafiə Sənayesi Nazirliyi 2009-cu ildən beynəlxalq müdafiə sərgilərinə qatılır. ABŞ, İngiltərə, Almaniya, İtaliya, Rusiya, Fransa, Türkiyə və digər inkişaf etmiş ölkələrin qabaqcıl firma və şirkətlərinin təmsil olunduqları beynəlxalq sərgilərdə Azərbaycan brendi olaraq Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan müdafiə təyinatlı məmulatlar nümayiş etdirilir. Bugünədək 35-dən çox beynəlxalq sərgidə təmsil olunan nazirliyin qatıldığı hər bir sərgidə nümayiş etdirdiyi məmulatlar böyük maraqla qarşılanmışdır.

2005-ci ildə yaradılan və qısa zamanda fəaliyyətə başlayan Müdafiə Sənayesi Nazirliyi beynəlxalq müdafiə sərgilərinə qatılmaqla yanaşı, bu qəbildən olan sərgilərin təşkilatçısına da çevrilib. Belə ki, Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə 2014-cü ildə Azərbacanda "ADEX" adı altında ilk dəfə Beynəlxalq müdafiə sərgisi keçirildi. Artıq ənənə halını alan "ADEX" sərgisi hər iki ildən bir keçirilir. Cari ilin sentyabrında keçirilən "ADEX-2018" sərgisi də bu qəbildən olan sərgilərdən idi.

"ADEX-2018" 3-cü Beynəlxalq müdafiə sərgisinin əhəmiyyətini artıran mühüm məqamlardan biri də sərginin Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müasir dövlətimizin 100 illik yubileyinin qeyd olunduğu tarixlərdə keçirilməsi idi. Sərgiyə qatılan ölkələrin nümayəndə heyətlərinə sərgi ilə yanaşı, bir əsrlik müstəqillik tarixi olan respublikamızla bağlı ətraflı məlumatlar da verildi. Xüsusi vurğulamaq istərdim ki, bunun nə qədər qürurverici bir hiss olduğunu sözlə ifadə etmək mümkün deyil.

"ADEX-2018" sərgisində Türkiyə, Fransa, İsrail, Rusiya, Belarus, Pakistan, Çin və s. dövlətlər daxil olmaqla dünyanın 29 ölkəsindən 224 şirkət iştirak edirdi.

Tədbirin təşkilatçısı olmaqla yanaşı, iştirakçısı kimi də çıxış edən Müdafiə Sənayesi Nazirliyi bir neçə adda yeni məmulatı ilk dəfə olaraq nümayiş etdirdi. Nümayiş etdirilən hər bir məmulat böyük maraqla qarşılandı. Xüsusi diqqət çəkən məmulatları sadalasaq, AZ-50 tipli avtomatı, HP-7,62 tipli hücum pulemyotunu, 81 millimetrlik minaatanı (NATO standartlarına uyğun), müxtəlif snayper tüfənglərini, zirehli texnikaları, pilotsuz uçuş sistemlərini, NSVT-12,7 tipli pulemyotlu məsafədən idarə olunan döyüş modulunu və sairi göstərmək olar.

"ADEX-2018" 3-cü Beynəlxalq müdafiə sərgisi dünyanın sürətlə inkişaf edən bazarlarında strateji əməkdaşlıqların inkişaf etdirilməsi istiqamətində əlverişli platforma rolunu oynadı. Beynəlxalq istehsalçılar, alıcılar və sənaye sahəsi üzrə ekspertlərin iştirak etdiyi bu sərgi əlaqələrin gücləndirilməsi və yeni əməkdaşlıqların qurulması üçün geniş fürsətlər təqdim etdi.

Sərgi çərçivəsində Müdafiə Sənayesi Nazirliyinin rəsmilərinin Türkiyə, Rusiya, Belarus, Ukrayna, İran, Özbəkistan, Serbiya, Sudan və digər ölkələrin nümayəndə heyətləri, şirkət rəhbərləri ilə görüşləri təşkil olundu. İkitərəfli görüşlərdə mövcud əmakdaşlıqların davam etdirilməsi və yeni əməkdaşlıqların qurulmasına dair geniş müzakirələr aparıldı. Görüşlərdə xarici nümayəndə heyətləri tədbirin yüksək səviyyədə təşkilini, sərgidə iqtisadiyyatın hərbi və müdafiə sahələrini təmsil edən dünyanın bir sıra tanınmış brendlərinin geniş tərkibdə təqdim olunduğunu xüsusi vurğuladılar.

Beynəlxalq nümayəndə heyətlərinin və xarici şirkətlərin "ADEX-2018" sərgisinə böyük maraq göstərməsi Azərbaycanın həm mühüm strateji tərəfdaş, həm də regionda etibarlı əlaqələrin rəmzi kimi yüksək rol və əhəmiyyətini bir daha təsdiqlədi.

Sərgi yerli və beynəlxalq mütəxəssislər, hərbi ekspertlər, hərbçilər, dövlət strukturlarının və şirkətlərin nümayəndələri, eləcə də sıravi vətəndaşlar tərəfindən izlənildi. Tədbirin keçirildiyi üç gün ərzində nümayiş etdirilən məmulatlara izləyicilər tərəfindən göstərilən böyük maraq sərginin əhəmiyyətini əks etdirdi.

Sərgi çərçivəsində Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi ilə Türkiyənin "ASELSAN" şirkəti arasında rabitə vasitələrinin birgə istehsalına dair əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalandı. Eyni zamanda, Müdafiə Sənayesi Nazirliyi ilə Müdafiə Nazirliyi arasında Silahlı Qüvvələrin rabitə vasitələrinin təchizatına dair Anlaşma Memorandumu imzalandı.

### İstehsal prosesi elm və təhsillə yanaşı addımlayır

Sahənin inkişafı ilə bağlı Müdafiə Sənayesi Nazirliyi ilə respublikanın digər aidiyyəti qurumlarının rəhbərləri arasında mütəmadi olaraq görüşlər keçirilir. Görüşlərdə müdafiə sənayesi üzrə İstehsal Proqramının formalaşdırılması, birgə əməkdaşlıq prosesində qarşıya çıxan problemlərin operativ həlli və digər istiqamətlər üzrə işgüzar müzakirələrin aparılması müsbət nəticələr verir.

Sahənin yüksəkixtisaslı kadrlara olan tələbatının təmin edilməsi məqsədilə Müdafiə Sənayesi Nazirliyinin sifarişi ilə Azərbaycan Texniki Universitetində yaradılmış Xüsusi texnika və texnologiya fakültəsində 5 müdafiə təyinatlı ixtisas üzrə bakalavr və magistr pillələrində 2012-2013-cü tədris ilindən kadr hazırlığı həyata keçirilir. Təhsil alan tələbələrin seçdikləri peşəni dərindən mənimsəmələri üçün nazirliyin müəssisələrində əyani vasitələrlə təmin olunmuş auditoriyalar yaradılıb. Fakültədən məzun olan onlarla gənc artıq Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində müvafiq işlə təmin olunub, ixtisaslı kadrlar kimi fəaliyyətlərinin davam etdirilməsi və təhsil illərində əldə etdikləri biliklərin tətbiqi üçün lazımi şərait yaradılıb.

Bu gün hərtərəfli inkişaf edən respublikamızda müdafiə sənayesinin yeni inkişaf hədəflərinin müəyyən edilməsi və bu istiqamətdə konkret işlərin həyata keçirilməsi üçün Müdafiə Sənayesi Nazirliyi tərəfindən müvafiq işlər aparılır. Belə ki, müxtəlif istiqamətlər üzrə müasir texnologiyalara əsaslanan yeni istehsal sahələrinin yaradılması, idxalı əvəz edəcək məhsulların yerli istehsalının təşkili, ixrac potensialının artırılması, eləcə də hazırda fəaliyyət göstərən istiqamətlərin təkmilləşdirilməsi üçün ardıcıl tədbirlərin həyata keçirilməsi və digər məsələlər nəzərdə tutulur.

İstehsal müəssisələrinin fəaliyyətinin tənzimlənməsi üçün özünütəminetmə səviyyəsinin yüksəldilməsi də qarşıda duran əsas vəzifələrdəndir. Bu istiqamətdə görüləcək ən mühüm işlərdən biri müdafiə təyinatlı məmulatlarla yanaşı, mövcud istehsal bazasından istifadə etməklə mülki məmulatların da istehsalını genişləndirməkdir.

Xüsusi qeyd etmək lazımdır ki, müdafiə sənayesinin inkişafı bilavasitə yeni hərbi məhsulların yaradılması üzrə elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin aparılmasından asılıdır. Sahə üzrə davamlı inkişaf naminə bu istiqamətdə də müvafiq işlər görülür.

Müdafiə Sənayesi Nazirliyi ilə Milli Aviasiya Akademiyası, Bakı Dövlət Universiteti və respublikanın digər elm ocaqlarının birgə əməkdaşlığı əsasında bir sıra tədqiqat işləri aparılır.

Son zamanlar Azərbaycan Milli Elmlər Akademiyasında, eləcə də respublikamızın digər qurumlarında müdafiə təyinatlı məmulatların yaradılması və istehsalı işləri aparılır. Alimlərimizin bu sahəyə belə maraq göstərməsini çox müsbət hal kimi qiymətləndiririk. Nəzərə almaq lazımdır ki, nazirliyin əsasnaməsində əsas fəaliyyət istiqamətləri müdafiə sənayesi sahəsində vahid dövlət siyasətinin formalaşmasında iştirak və bu siyasətin həyata keçirilməsini təmin etmək, eləcə də müdafiə sənayesinin inkişafına nail olmaqdır. Bu sahədə aparılan işlərin tənzimlənməsi Müdafiə Sənayesi Nazirliyinin iştirakı ilə aparılmalıdır. Onu da qeyd edək ki, nazirliyin müəssisələrində dövlət başçısının tapşırığı əsasında müdafiə təyinatlı məmulatların istehsalını həyata keçirən ixtisaslaşmış sahələr yaradılmış və dövlət vəsaiti hesabına investisiyalar qoyulmuşdur. Hazırda həmin ixtisaslaşmış istehsal sahələrinin uğurlu fəaliyyəti nəticəsində respublikamızın güc strukturlarının müdafiə təyinatlı məhsullara olan tələbatının ödənilməsi ilə yanaşı, məhsullarımız xaricə də ixrac edilir. Bu sahədə məsələlərin effektiv həlli üçün alimlərimizlə birgə əməkdaşlığın genişləndirilməsinə dair danışıqlar aparılır.

### 20-dən çox hərbi zavodda 1200 adda hərbi təyinatlı məhsul istehsal olunur

Son dövrlər müdafiə təyinatlı məhsulların yaradılması istiqamətində görülmüş işlər bir neçə adda yeni məmulatın yaxın gələcəkdə seriyalı istehsalına başlanılacağının təminatını verir. Belə ki, nazirliyin müəssisələrində yaradılmış AZ 7,62 və EM-14 avtomatlarının istehsalat hazırlığı artıq başa çatdırılmış və 2019-cu ildən seriyalı istehsalına başlanılacaqdır. Eləcə də növbəti illərdə RPQ 7V-2 tipli qumbaraatan üçün müxtəlif növ atəş yığımlarının, müxtəlif çaplı izburaxan patronların, pulemyot və toplar üçün lülələrin, 2A-42 (AT-30) tipli avtomatik topun və s. məmulatların seriyalı istehsalı nəzərdə tutulur.

Bütün bu görülmüş işlər onu deməyə əsas verir ki, Azərbaycanın artıq güclü hərbi sənayesi formalaşıb və respublikamızın Silahl Qüvvələrini müasir silah və texnikalarla təmin etmək iqtidarındadır.

Müdafiə Sənayesi Nazirliyinin fəaliyyətinə ən yüksək qiymət hər zaman ölkəmizin rəhbəri tərəfindən verilmişdir. Bu ilin iyununda Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda keçirilən təntənəli hərbi paradda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin söylədiyi "Ordumuz ən müasir silahlarla, texnika ilə təchiz edilmişdir. O cümlədən Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir. Bizim təşəbbüsümüzlə son illər ərzində 20-dən çox hərbi zavod yaradılmışdır. Bu zavodlarda 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur, ordumuz təchiz edilir. Eyni zamanda, biz artıq hərbi məhsullarımızı ixrac etməyə də başlamışıq" sözləri Müdafiə Sənayesi Nazirliyinin əməkdaşları tərəfindən nazirliyin fəaliyyətinə verilən ən yüksək dəyər kimi qiymətləndirildi.

Azərbaycan Silahlı Qüvvələrinin gücünün göstəricisi olan hərbi paradda nümayiş etdirilən müasir silah və texnikalar, eyni zamanda ordumuzun hazırlıq səviyyəsi düşmən tapdağındakı doğma torpaqlarımızın azad ediləcəyi günün heç də uzaqda olmadığını bir daha təsdiqlədi. Xalqımız artıq əmindir ki, qəhrəman oğul və qızlarının qanı hesabına azadlıq əldə etmiş doğma vətəninin müstəqilliyini qoruyacaq və ərazi bütövlüyünü təmin edəcək ən müasir silahlarla təmin olunmuş güclü ordusu var.

***Yəhya MUSAYEV,***
***müdafiə sənayesi nazirinin müavini***

# "Cənub qaz dəhlizi"nin ehtiyat mənbəyi

*Ardı 1-ci səh.*

Azərbaycan həmin layihə ilə zəngin qaz ehtiyatlarının istismarına başlayıb ki, bu da regionun gələcəyinə geniş yol açacaq. İkincisi, sözügedən layihə Azərbaycanı Avropa üçün mühüm enerji təchizatçısına çevirəcək. Nəhayət, "Şahdəniz-2" Xəzər regionu ilə Avropa bazarlarını bir-birinə bağlayacaq. Xəzər dənizindən Avropanın mərkəzinə qədər olan ərazidəki bir çox ölkələr bundan mənfəət götürəcəklər.



"Şahdəniz-2"nin qazı Xəzərdə bir-birinə körpü vasitəsilə birləşdirilmiş iki yeni nəhəng qurğu - Yaşayış Blokları və Texnoloji Təchizat Platforması, eləcə də Hasilat və Dikborular Platforması vasitəsilə əldə olunur. Bu qoşa qurğuya "Şahdəniz Bravo" adı verilib. Platformaların tikintisi beynəlxalq standartlara uyğun şəkildə tam yenidən qurulmuş və müasirləşdirilmiş istehsalat obyektləri olan Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) və Bibiheybət ərazisindəki "AMEK-Tekfen-Azfen" (ATA) sahəsində həyata keçirilib. Hər iki platformanın dayaq blokları BDÖZ-də, üst hissələri ATA-da inşa edilib.

Bundan əlavə, yatağın ərazisində qazma işləri aparılıb, qazı sahilə nəql etmək üçün sualtı infrastruktur yaradılıb, mavi yanacağı qəbul etmək üçün Səngəçal terminalında yeni qurğular tikilib.

"Şahdəniz-2" və Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi üzrə tikinti işlərinin ən qızğın vaxtlarında Azərbaycanda bütün əsas müqavilələr üzrə işlərə 24 min nəfərdən çox insan cəlb olunmuşdu ki, onların da 80 faizdən çoxu Azərbaycan vətəndaşları idi.



Təqdirəlayiq haldır ki, yerli işçi qüvvəsi üçün tikinti və istismar dövründə ən çox ehtiyac duyulan peşələr üzrə geniş təlim proqramları həyata keçirilib. Proqramın əsas məqsədi paslanmayan polad və sualtı konstruksiyaların quraşdırılması zamanı qaynaq işlərini bacarıqla görən ixtisaslı fəhlələrin hazırlanması olub. BDÖZ-də hətta qaynaqçılar üçün xüsusi təlim mərkəzi açılıb. ATA sahəsində, Səngəçal terminalında isə qaynaqçılar üçün əlavə təlimlər təşkil edilib. CQBK-nın genişləndirilməsi layihəsində işləyən ixtisaslaşdırılmış boru kəməri qaynaqçılarının yetişdirilməsi üçün də təlimlər keçilib.

"Şahdəniz-2"nin salnaməsində ən önəmli hadisələrdən biri də "Xankəndi" gəmisinin istifadəyə verilməsi olub. "Xankəndi" keçən ilin sentyabr ayında istismara verilib. Texnikanın ən son nailiyyətlərini özündə birləşdirən bu sualtı tikinti gəmisi məxsusi olaraq "Şahdəniz-2" layihəsi çərçivəsində Xəzər dənizində ən böyük sualtı hasilat sistemini quraşdırmaq üçün layihələndirilib və inşa edilib. 378 milyon ABŞ dolları dəyərində olan gəminin Bakıda keçirilmiş rəsmi açılış mərasimində Prezident İlham Əliyev iştirak edib.

"Şahdəniz" yatağı ərazisində artıq öz uğurlu "debüt"ünü etmiş "Xankəndi" ən azı daha 10 il orada işləyəcək. Bundan əlavə, sualtı və dəniz-gəmi əməliyyatlarında STB-1 daşıma, "İsrafil Hüseynov" borudüzmə barjlarından, "Azərbaycan" kran və "Akademik Tofiq İsmayılov" dalğıc gəmilərindən də istifadə olunur.

3500 kilometrlik "Cənub qaz dəhlizi"nin ehtiyat mənbəyi Xəzərin qoynunda, "Şahdəniz-2" müqavilə sahəsində, yeni platformaların quraşdırıldığı, "Xankəndi" gəmisinin işlədiyi ərazidədir. Buradan sualtı xətlərlə sahilə çıxarılan mavi yanacaq Səngəçal terminalındakı qurğuların köməyi ilə Avropaya doğru uzun bir yol başlayır. "Cənub qaz dəhlizi"nin bu il mayın 29-da Səngəçalda keçirilən rəsmi açılış mərasimində Prezident İlham Əliyev "Şahdəniz"in əhəmiyyətini bir daha vurğulayaraq demişdir: "1994-cü ildən sonra ikinci böyük kontrakt "Şahdəniz" qaz yatağı üzrə imzalanmışdır. Onu da qeyd etməliyəm ki, bu kontrakt 1996-cı il iyunun əvvəlində məhz Xəzər Neft-Qaz Sərgisinin keçirildiyi gündə imzalanmışdır. Beləliklə, Azərbaycan dünyaya özünü nəinki neft ölkəsi, həm də qaz ölkəsi kimi təqdim etdi. Onu da yaxşı xatırlayıram ki, o vaxt dünyada enerji təhlükəsizliyi məsələlərində qaz amili o qədər də ciddi rol oynamırdı. Hətta qaz yataqlarının işlənilməsi o qədər də böyük maraq doğurmurdu. Çünki mənfəət neft yataqları ilə müqayisədə daha aşağı idi. Ona görə bu layihəyə investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Ancaq bu gün, bu tarixi gündə "Cənub qaz dəhlizi"nin açılışını qeyd edərkən biz görürük ki, bu, nə qədər vaxtında atılmış və müdrik addımdır. "Şahdəniz" qaz yatağı "Cənub qaz dəhlizi"nin əsas resurs bazasıdır".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Bakıda Parlamentlərarası İttifaqın Gənc Parlament Üzvlərinin 5-ci Qlobal Konfransı başa çatıb







Dekabrın 15-də Bakıda Parlamentlərarası İttifaqın Gənc Parlament Üzvlərinin 5-ci Qlobal Konfransı işini başa çatdırıb.

AZƏRTAC xəbər verir ki, konfrans çərçivəsində "Güclü gələcək: sabahın iş yerləri" mövzusunda üçüncü sessiyada Oksford Universitetinin professoru Daniel Susskind əsas mövzuya dair məruzə ilə çıxış edib. O bildirib ki, 2020-ci ilədək dünyada qarşıya çıxacaq ən böyük problem kütləvi işsizlik olacaq. Ona görə elə kadrlar hazırlanmalıdır ki, onlar müasir dövrün texnologiyası ilə işləməyi bacararaq rəqabət apara bilsinlər. Eyni zamanda, texnoloji sistemləri özləri də hazırlaya bilsinlər. Təəssüf ki, bütün ölkələrdə belə insanların hazırlanması üçün kifayət qədər imkanlar yoxdur.

Beynəlxalq Əmək Təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya üzrə bürosunun direktor müavini Xoloud Alxaldi bu gün dünyada işsizliyin həddinin 63 faiz olduğunu deyib. O bildirib ki, bəzi regionlarda və ölkələrdə gənclər arasında işsizlik daha yüksəkdir, onlar üçün iş yerlərinin yaradılması ilə bağlı qlobal hərəkat yaradılıb. 2030-cu ilədək qlobal hərəkat gündəliyinə müvafiq olaraq parlament üzvləri, elm xadimləri, QHT-lərin iştirakı ilə gənclər üçün tədbirlərin həyata keçirilməsi, o cümlədən iş yerlərinin yaradılması ilə bağlı alyans təsis olunub. Layiqli iş yerləri ilə bağlı bir sıra mexanizmlər hazırlanıb.






"Azərkosmos" ASC-nin sədr müavini Rövşən Rüstəmov deyib ki, dünyada texnologiyaların sürətli inkişafı nəticəsində bir sıra peşələr və iş növləri sıradan çıxacaq, milyonlarla insan iş yerlərini itirməli olacaq. Elm və texnologiyaların inkişafı növbəti 15 il ərzində daha da aktual olacaq. Robotlar artıq son illər ərzində populyarlaşıb və gələcəkdə daha da populyarlaşacaq. Növbəti illərdə bir çox işlərin avtomatlaşdırılmasının şahidi olacağıq. Broker, bank işçisi, hüquqşünas, auditor, kassir kimi peşələr növbəti 10 illər ərzində sıradan çıxacaq. Ona görə də inklüziv dayanıqlı iqtisadi inkişaf üzrə "Hamıya iş yerləri" şüarı altında işlər görülməlidir. Ümumilikdə tendensiya belədir ki, daha çox yaradıcılıq, liderlik bacarıqları yaxşı olanlar üçün iş yerləri aktual olacaq. Milyonlarla insan peşələrini dəyişməsə, işlərini itirəcək. İnsanlar bu riskləri nəzərə almalıdırlar, hökumətlər, qeyri-hökumət təşkilatları insanları maarifləndirməli və stimullaşdırmalıdırlar ki, yeni peşələrə yiyələnsinlər.

R.Rüstəmov Azərbaycanda insan kapitalının gələcəkdə gözlənilən dəyişikliklərə uyğunlaşmağa hazır olduğunu diqqətə çatdırıb. Bildirib ki, hazırda ölkəmizin peykləri gənc azərbaycanlı mütəxəssislər tərəfindən idarə olunur. 2011-ci ildə "Azərkosmos" ASC yaradılanda xaricdə təhsil almış azərbaycanlı gənclərin ölkəyə qayıtması nəticəsində biz "Azərkosmos" komandasının formalaşdırılmasında heç bir çətinlik yaşamadıq.

Azərbaycan Dövlət İqtisad Universitetində mühazirəçi Fəridə Əsgərzadə, HORİZON Qrupda əlaqələndirici Marqareta Drzeniek və başqaları mövzu ilə bağlı fikirlərini bildiriblər. Çıxış edənlər yeni texnologiyaların gənc işçilərə təsir mexanizmlərindən danışıblar. Həmçinin əmək bazarlarının gücləndirilməsi, təlim tədbirlərinin, investisiyaların artırılması, daha güclü sosial təminat mexanizmlərinin və gender bərabərliyinin təmin edilməsi məsələlərinə dair fikirlərini bölüşüblər.

"Gələcək nəsillər üçün parlamentin atdığı addımlar" mövzusunda sessiyada Kanadanın ətraf mühit və davamlı inkişaf üzrə komissarı Cudi Gelfandın videomüraciəti səslənib.

Panel müzakirələrdə Birləşmiş Ərəb Əmirliklərindən olan deputat Alyaa Alijassim ölkəsinin bu sahədəki təcrübəsindən, gördüyü işlərdən danışıb. Bildirib ki, Birləşmiş Ərəb Əmirlikləri gənclərin özlərini inkişaf etdirməsi üçün lazımi şəraiti yaradır. Müvafiq hakimiyyət dairələri qanunvericilik aktlarının gənclərə təsirini qiymətləndirir. Qanunvericilikdə edilə biləcək dəyişikliklərlə bağlı beynəlxalq meyillər nəzərdən keçirilir.

Macarıstanın gələcək nəsillər üçün sabiq komissarı Sandor Fülöp ombudsman təsisatının tarixi barədə danışıb. O deyib ki, ombudsmanın bütün dünyada 100-dən çox modeli var. Komissar parlament və ombudsman təsisatlarının səylərini birləşdirərək fəaliyyət göstərməsinin əhəmiyyətini qeyd edib.

Milli Məclisin deputatı Sevinc Fətəliyeva qeyd edib ki, savadlı, enerjili, yaradıcı gənclər hər bir ölkənin gələcəkdəki gücünü, uğurunu təmin edir. Gənclərin ehtiyaclarının qarşılanması üçün hökumət və parlament birlikdə işləməli, uğurlu gələcək naminə onlara yaxşı təhsil, layiqli əmək təmin etməlidir. Deputat ölkəmizin bu sahədəki mövcud təcrübəsindən danışıb. Gənclərin səlahiyyətləndirilməsinin vacibliyinə toxunan S.Fətəliyeva bildirib ki, Azərbaycanda yüzlərlə gənclər təşkilatı, QHT fəaliyyət göstərir. Onlar bizim sosial həyatımızın ayrılmaz hissəsidir. O, həmçinin ölkəmizdə Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən dövlət proqramlarından danışıb, Azərbaycanda gənclərə xüsusi diqqət yetirildiyini deyib. 2015-ci ildə keçirilən parlament seçkilərində yaşı 40-dan aşağı olan deputatın seçildiyi diqqətə çatdırılıb. Azərbaycan parlamentinin Gənclər və idman komitəsinin Gənclər və İdman Nazirliyi, Gənclər Fondu ilə sıx əməkdaşlıq etdiyi bildirilib.

Milli Məclisin deputatı, həmçinin dünyada mövcud olan təhdidlər haqqında danışıb. Qeyd edib ki, heç bir ölkə, icma, cəmiyyət terrorçuluqdan, ekstremizmdən sığortalanmayıb. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışan deputat deyib ki, Azərbaycan ərazisinin 20 faizi iyirmi ildən çoxdur işğal altındadır. Ermənistanın azərbaycanlılara qarşı apardığı etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib.

Panel müzakirələrin iştirakçıları mövzu ilə bağlı fikirlərini səsləndiriblər.

Daha sonra milli parlamentlərdə gənclərin iştirakına dair 2018-ci il Parlamentlərarası İttifaqın hesabatının təqdimatı ilə bağlı iclas keçirilib. İclasda Parlamentlərarası İttifaqın gənclərin iştirak proqramının meneceri Zeina Hilal, Zambiyadan gənclər parlamenti təşəbbüsünün təsisçisi Nava Villi Sitali, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının nümayəndəsi Conas Olsen çıxış ediblər. Bildirilib ki, hesabata əsasən dünyada 30 yaşından cavan deputatların sayı son iki ildə 1,9 faizdən 2,2 faizə qədər artıb. Bu artıma baxmayaraq, dünya əhalisinin 30 yaşdan aşağı olan hissəsi ilə müqayisədə gənc deputatların sayında kəskin azlıq müşahidə olunur. Qırx yaşından aşağı deputatların sayı 2016-cı ildə 14,2 faiz idisə, 2018-ci ildə 15,5 faiz olub. Qırx beş yaşdan aşağı deputatların sayı 2016-cı ildə 26 faiz, 2018-ci ildə 28,1 faiz təşkil edib. Şimal ölkələri yaşı 30-dan aşağı olan deputatların seçilməsinə üstünlük verirlər. Bu rəqəm Norveçdə, İsveçdə və Finlandiyada 10 faiz çoxdur. San-Marino, Qambiya və Venesuela parlamentlərinin aşağı palatalarında onların say fərqi 10 faizdir. Yuxarı palatada bu səviyyəyə yalnız 9,1 faizlə Butan çatır.

Konfransın bağlanış sessiyasında yekun sənədin təqdimatı olub.

Təqdimat zamanı Milli Məclisin deputatı Şahin İsmayilov deyib ki, münaqişələrə son qoymaq lazımdır, çünki münaqişə zonalarında təhsillə məşğul olmaq imkanı məhdud olur. Gələcək nəsillər naminə hüquq və maraqların qorunması və təşviq edilməsi hər kəsin məqsədinə çevrilməlidir.

Milli Məclisin deputatı alternativ enerjidən istifadə etmək üçün yaxşı qanunların qəbul edilməsinin vacibliyinə toxunub. Konfrans çərçivəsində davamlı inkişaf məqsədlərinə çatmaq üçün müzakirələrin aparıldığını deyən deputat bu istiqamətdə səylərin birləşdirilməsinin əhəmiyyətini vurğulayıb. Həmçinin biomüxtəlifliyin qorunması, tullantıların idarə olunması, təkrar emalı kimi məsələləri qeyd edib.

Parlamentlərarası İttifaqın Gənclər Forumunun sədri Mourine Osoru Bakının bu konfransa evsahibliyi etməsinə görə Prezident İlham Əliyevə minnətdarlıq edib. O bildirib ki, təhsil hamı üçün əlçatan, pulsuz olmalıdır. Mourine Osoru, həmçinin təhsilin əmək bazarının tələblərinə uyğunlaşdırılmasının vacibliyini vurğulayıb.

Bununla da Parlamentlərarası İttifaqın Gənc Parlament Üzvlərinin 5-ci Qlobal Konfransı başa çatıb.

---

Regionun lider dövləti olan Azərbaycan öz siyasi dəstxətti, inkişafı və beynəlxalq nüfuzu ilə bu statusu layiqincə daşıdığını təsdiq edib. Bu gün Cənubi Qafqazı əhatə edən beynəlxalq layihələrin Bakının maraqları nəzərə alınmadan həyata keçirilməsi mümkün deyil. Ən mühümü odur ki, regiondakı ən mühüm və xarici tərəfdaşların da yaxından qatıldığı layihələrin təşəbbüskarı elə Azərbaycanın özüdür. Onlar respublikamızla hesablaşır, məsləhətləşir, mövqelərini bölüşürlər.

# Dayanıqlı inkişafın təmin edilməsində gənclərin rolu böyükdür

## Bu fikir Bakıda Parlamentlərarası İttifaqın Gənc Parlament Üzvlərinin 5-ci Qlobal Konfransında səsləndi

### Beynəlxalq tədbirlər məkanı

Azərbaycan tarixi, geostrateji mövqeyi, ənənələri və dinamik inkişafı ilə qlobal arenaya mühüm töhfələr verməkdədir. Bunun müxtəlif amillərlə yanaşı, respublikamızın mühüm beynəlxalq tədbirlərə uğurla evsahibliyi etməsi də təsdiqləyir. Azərbaycan neçə illərdir ki, qlobal səviyyəli tədbirlərə evsahibliyi edən, dünyanın diqqətində olan məsələləri müzakirəyə çıxaran siyasi, iqtisadi və humanitar mərkəz kimi tanınır. Dünya humanitar forumu, sivilizasiyalararası dialoq forumu, müxtəlif idman yarışları və digər qlobal əhəmiyyətli tədbirlər Bakını beynəlxalq əməkdaşlığın əsas mərkəzlərindən birinə çevirib.

Belə tədbirlərin keçirilməsində Azərbaycanın seçilməsi təsadüfi deyil. Çünki qədim və zəngin mədəniyyətə malik, müxtəlif ənənələrin, sivilizasiya və konfessiyaların əsrlərboyu dinc yanaşı mövcud olduğu Azərbaycan bu tədbirlərin keçirilməsi üçün həqiqətən də əvəzsiz məkandır. Düzgün iqtisadi siyasət, cəmiyyətdəki əmin-amanlıq, sabitlik, dünyanın müxtəlif qütblərində dayanan dövlətlərlə yaxşı münasibətlər, beynəlxalq təşəbbüslər bu gün ölkəmizi dünyaya yalnız sabitlik və inkişaf deyil, həm də əməkdaşlıq məkanı kimi təqdim edir. Respublikamız bu sahədə daim öz təcrübəsini nümayiş etdirməklə və beynəlxalq səviyyədə mükəmməl nümunələr ortaya qoymaqla birləşdirici faktora çevrilib. Bu mənada respublikamızın müstəqillik illərində qazandığı ən mühüm nailiyyətlərdən biri də birgə beynəlxalq mübarizənin təşkili ilə bağlı qlobal fəaliyyətin istinad ünvanı kimi tanınmasıdır.

### 44 ölkədən 170 nümayəndə

Bu günlərdə Azərbaycan daha bir mötəbər beynəlxalq tədbirə evsahibliyi etdi. Dekabrın 14-15-də Bakıda Parlamentlərarası İttifaqın Gənc Parlament Üzvlərinin 5-ci Qlobal Konfransı keçirildi. Tədbirdə 44 ölkədən 170 nümayəndə, o cümlədən parlament üzvləri, beynəlxalq təşkilatların təmsilçiləri iştirak etdilər. Xatırladaq ki, Parlamentlərarası İttifaq müstəqil dövlətlərin parlamentlərinin ümumdünya təşkilatıdır. Əsası 1889-cu ildə qoyulmuşdur. Qərargahı Cenevrə şəhərində yerləşir. Azərbaycan Respublikası Parlamentlərarası İttifaqa bu təşkilatın 1993-cü ildə Dehlidə keçirilmiş 89-cu Assambleyasında üzv qəbul olunub.

Konfransın açılışında çıxış edən Milli Məclisin Sədri Oqtay Əsədov əvvəlcə Parlamentlərarası İttifaqın bu mötəbər toplantısı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriklərini və xoş arzularını iştirakçılara çatdırıb.

Oqtay Əsədov bildirib ki, ötən yüzilliyin sonlarında bəşəriyyətin mövcudluğunu qorxu altına alan qlobal təhlükələrin hamılıqla dərk edilməsi dünya sivilizasiyasının inkişafının xarakterini dəyişdirməyə yönələn beynəlxalq səylərin artmasına gətirib çıxarmışdır. Öz tarixinin dönüş mərhələsində olan insan cəmiyyəti sivilizasiyanın inkişafı prosesinin yeni vektorunu bərqərar etməyə bəslədiyi ümidləri dayanıqlı inkişaf ideologiyasının həyata keçirilməsi ilə bağlamışdır. "Bu gün bir çox tədqiqatçılar dayanıqlı inkişaf prinsiplərinə keçidi sosial mühəndisliyin xüsusi bir metodu və "ekoloji politologiya" adlandırırlar. Söhbət qloballaşmanın və böhranlı halların mənfi nəticələrini aradan qaldırmağa yönələn siyasi fəaliyyətdən və ekoloji tarazlığa nail olmaq yolu ilə dayanıqlı və təhlükəsiz inkişafı təmin etməkdən gedir. Nəticə etibarı ilə bütün bunlar indiki və gələcək nəsillər üçün daha güvənli, ədalətli və humanist bir dünya qurulmasına gətirib çıxarmalıdır. Bu baxımdan inanıram ki, konfransın sessiyalarında aparılacaq fikir mübadiləsi və müzakirələr dayanıqlı inkişafın təmin edilməsində gənclərin, xüsusən gənc parlament üzvlərinin rolunun gücləndirilməsi yollarını müəyyən etməyə imkan verəcəkdir", - deyə Oqtay Əsədov diqqətə çatdırıb.

### Mükəmməl gənclər siyasəti

Oqtay Əsədov daha sonra qeyd edib ki, dünya əhalisinin mühüm hissəsini təşkil edən gənclər ən dinamik sosial qrup olaraq dayanıqlı inkişaf məqsədlərinin əldə edilməsinə dəyərli töhfələr verə bilərlər. Çox böyük intellektual potensialın daşıyıcısı olan gənclər bir çox ölkələrin siyasi, iqtisadi və sosial strukturlarında önəmli yer tutaraq müasir cəmiyyətin mənəvi inkişafının mühüm amili kimi çıxış edirlər: "Sivilizasiyalar arasında qarşılıqlı əlaqələrin intensiv gücləndiyi dövrdə gənclər müxtəlif mədəniyyətlərə xas dəyərləri və yeni ideyaları daha tez mənimsəyirlər. Bununla əlaqədar xüsusi qeyd edilməlidir ki, bəşər sivilizasiyasının inkişafının müasir mərhələsində milli eqoizm və müstəsnalıq düşüncəsinin aradan qaldırılması, müharibə və zorakılıq fəlsəfəsinin sülh və əməkdaşlıq fəlsəfəsi ilə əvəz edilməsi üçün obyektiv imkanlar yaranmışdır. Əminəm ki, yeni dünya nizamının formalaşmasında məhz gənclər həlledici rol oynamalıdırlar".

Milli Məclisin Sədri Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasəti barədə danışaraq qeyd edib ki, respublikamızda gənclər sosial, humanitar, iqtisadi və siyasi fəaliyyətə yaxından cəlb olunmuşlar. Gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsini təşkil edir. Dövlətin yaratdığı geniş imkanlar sayəsində gənclər cəmiyyətin aparıcı qüvvəsinə çevrilmişlər: "Bizim gənclərimiz Azərbaycan parlamentində də önəmli mövqelərə malikdirlər. Onlar qanunvericilik və qanunyaratma prosesi ilə bağlı gündəlik işlərlə yanaşı, beynəlxalq parlament təşkilatlarının fəaliyyətində yaxından iştirak edirlər. Dövlətimizin qarşılaşdığı problemlər, xüsusən Ermənistan Respublikasının Azərbaycana qarşı silahlı təcavüzünün ağır nəticələri, ölkə ərazisinin 20 faizinin işğal edilməsi, 1 milyondan çox soydaşımızın doğma yurdlarından didərgin düşməsi barədə məlumatları xarici ölkələrdən olan həmkarlarına çatdırmaq üçün bütün vasitələrdən istifadə edirlər".

O da qeyd olunub ki, beynəlxalq təşkilatlar bu münaqişəyə həsr edilmiş bütün qərarlarında Azərbaycan ərazilərinin işğalına son qoyulması zərurətinə istinad edirlər. 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə, eləcə də 2008-ci ildə BMT Baş Məclisinin qəbul etdiyi qətnamədə Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilmişdir. Bu sənədlərdə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı birmənalı şəkildə təsdiqlənmişdir. Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurasının Parlament Assambleyası, Avropa Parlamenti və İslam Əməkdaşlığı Təşkilatı kimi digər beynəlxalq təşkilatlar da oxşar qərar və qətnamələr qəbul etmişlər. "Əminik ki, həm bizim ölkəmizin, həm də bütövlükdə Cənubi Qafqaz bölgəsinin hərtərəfli inkişafına mane olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normaları və prinsipləri, xüsusən onların arasında başlıca prinsip olan dövlətlərin ərazi bütövlüyü əsasında həll ediləcəkdir", - deyə Milli Məclisin Sədri bildirib.

Oqtay Əsədov çıxışının sonunda vurğulayıb ki, Parlamentlərarası İttifaqın bu mötəbər toplantısının Bakıda keçirilməsi bizim ölkəmizin siyasi həyatında çox önəmli hadisədir: "Mən inanıram ki, qlobal konfransda 4 qitəni, 44 ölkəni təmsil edən gənc parlament üzvləri Şərq dünyası ilə Qərb dünyası arasında körpü rolu oynayan Azərbaycan barəsində dolğun və ətraflı məlumat alacaq, müxtəlif mədəniyyətlərin vətəni olan ölkəmizdən xoş təəssüratla ayrılacaqlar".

### Dialoq üçün mühüm platforma

Parlamentlərarası İttifaqın Prezidenti Qabriela Kuevas Barron çıxışında bu tədbirə evsahibliyi etdiyinə görə Azərbaycan xalqına və Prezident İlham Əliyevə təşəkkürünü bildirib. Qeyd edib ki, Azərbaycan gənclər üçün bugünün çağırışlarını qət etməkdə yeni innovasiyalı həll yollarını təklif edir, onların həyata keçirilməsi üçün hər cür şərait yaradır. O, konfransda müzakirə ediləcək məsələlərin dünyada gedən qlobal dəyişikliklərə öz töhfəsini verəcəyinə əminliyini diqqətə çatdırıb. Onun sözlərinə görə, hazırda iqlim dəyişikliyi nəticəsində 1,5 dərəcə ümumi qlobal temperatur artıb. Dünya əhalisi növbəti 40 il ərzində 60 faiz artacaq. Bu baxımdan ətraf mühitə olan təsirlər gələcəkdə vəziyyəti daha da çətinləşdirəcək. Ərzaqla bağlı çətinliklər yaranacaq. Biz statistik məlumatları nəzərə almalı, ətraf mühitə yaranan təhdidlərin həyatımıza təsirlərini bilməliyik. Buna görə də biz gələcəyimiz naminə seçimlərimizi doğru etməli, qərarlarımızı düzgün hesablamalıyıq.

Parlamentlərarası İttifaqın Gənclər Forumunun sədri Mourine Osoru də konfransın əhəmiyyəti ilə bağlı fikirlərini bildirib. Gənclərin cəmiyyətin aparıcı qüvvəsi olduğunu vurğulayan Mourine Osoru bu sahədə üzv ölkələrin səylərini birləşdirməyin, təcrübələrini bölüşərək qlobal səviyyədə səslərini eşitdirməyin vacibliyini qeyd edib. Dayanıqlılığın təşviqi, gələcək nəsillərin maraqlarının müdafiəsi mövzusunda keçirilən bu konfransın dialoq və məlumat mübadiləsi üçün yaxşı platforma olduğunu, gənclərin parlamentdə iştirakının artırılmasının əhəmiyyətliliyi vurğulanıb.

### 15 ildə Azərbaycanda gənclər sahəsinə ayrılan vəsait 100 dəfə artırılıb

Gənclər və idman naziri Azad Rəhimov çıxışında Azərbaycanın gənclər siyasəti, ölkəmizdə gənclərə göstərilən diqqət və qayğı barədə məlumat verib. Azərbaycanın gənc ölkə olduğunu söyləyən Azad Rəhimov bildirib ki, əhalimizin 60 faizi - yəni 3-də 2 hissəsi 30 yaşdan aşağıdır. 1994-cü ildən ölkədə Gənclər və İdman Nazirliyi fəaliyyət göstərir. 1996-cı il fevralın 2-də isə ölkəmizdə ilk Gənclər Forumu keçirilib və hər il həmin gün - Gənclər Günü kimi qeyd olunur. Ölkəmizdə 2001-ci ildə gənclər siyasəti ilə bağlı qanun qəbul edilib. 2011-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə Gənclər Fondu, 2015-ci ildən isə Milli Məclisdə Gənclər və idman komitəsi yaradılıb. Azərbaycanın dövlət büdcəsindən gənclər sahəsinə ayrılan vəsait 2003-cü ildən indiyədək 100 dəfə artırılıb. Son 10 il ərzində 41 gənclər mərkəzi yaradılıb, ölkədə gənclərlə bağlı 300-dən çox QHT fəaliyyət göstərir. Gənc sahibkarlara öz bizneslərini yaratmaq üçün bütün lazımi kömək göstərilir. Azərbaycan dövləti 2007-ci ildən bugünə kimi dünyanın 100 universitetində 3600-dən çox tələbənin təhsil alması üçün maliyyə yardımı göstərib. Azərbaycan gəncləri Avropa Şurası, BMT, Avropa İttifaqı və 30-dan çox beynəlxalq, humanitar təşkilatlarda təmsil olunurlar.

Dekabrın 15-də Parlamentlərarası İttifaqın Gənc Parlament Üzvlərinin 5-ci Qlobal Konfransı öz işini sessiyalarla davam etdirib. Boliviya parlamentinin deputatı, Parlamentlərarası İttifaqın Gənc Parlament Üzvlərinin idarə heyətinin üzvü Rut İtamari Betsaida Çok, "Təmiz Şəhər" ASC-nin idarə heyətinin sədri Etibar Abbasov, Zambiyanın Yaşıl Partiyasının baş katibi Daniel Siçilonqo, Kosta-Rikanın deputatı Viales Villeqas, çinli deputat Zigang Yu, Ruandanın parlament üzvü Albert Ruhakana, Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova, UNESCO-nun nümayəndəsi Meirgul Alpisbayeva, Küveytdən olan deputat Omar Altabtababee, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə, Qazaxıstan parlamentinin üzvü Bəxtiyar Make, Oksford Universitetinin professoru Daniel Susskind, Beynəlxalq Əmək Təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya üzrə bürosunun direktor müavini Xoloud Alxaldi, "Azərkosmos" ASC-nin sədr müavini Rövşən Rüstəmov, Birləşmiş Ərəb Əmirliklərindən olan deputat Alyaa Alijassim, Macarıstanın gələcək nəsillər üçün sabiq komissarı Sandor Fülöp, Milli Məclisin deputatı Sevinc Fətəliyeva müzakirə olunan məsələlərlə bağlı çıxışlar ediblər.

İki gün davam edən Parlamentlərarası İttifaqın(PAİ) Gənc Parlament Üzvlərinin 5-ci Qlobal Konfransında yekun sənəd təqdim olunub.

Beləliklə, Azərbaycan növbəti beynəlxalq tədbirə evsahibliyi etdi. Eyni zamanda konfransın keçirildiyi Azərbaycan Milli Məclisinin inzibati binası və bütövlükdə paytaxtımızın baş çəkdikləri digər ünvanları qonaqlarda xoş təəssürat yaratdı. Ayrı-ayrı ölkələrin nümayəndələri bir daha Bakını gördülər, ölkəmizin sürətli yüksəlişinə heyran olduqlarını bildirdilər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Rusiya Azərbaycanın əsas iqtisadi və ticarət tərəfdaşlarındandır

## Moskvada Azərbaycan-Rusiya iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının iclası keçirilib

*Əvvəli 1-ci səh.*



Ticarət və qarşılıqlı investisiya qoyuluşlarının Azərbaycan-Rusiya əlaqələrinin mühüm istiqamətlərindən olduğunu qeyd edən nazir Şahin Mustafayev bildirib ki, Azərbaycan Rusiya iqtisadiyyatına 1 mlrd. dollardan çox, Rusiya isə Azərbaycana 4,2 mlrd. dollardan artıq investisiya qoyub. Respublikamız Rusiyanın Şimali Qafqaz regionunda əsas investorlardan sayılır. Yessentukidə "İstoçnik" sanatoriya-turizm mərkəzi, Krasnodarda meyvə-tərəvəz konservləri istehsalı zavodu, Jeleznovodskda və Kislovodskda sanatoriya-mehmanxana kompleksinin tikintisi və digər layihələr Rusiyada Azərbaycan şirkətləri tərəfindən reallaşdırılan uğurlu layihələrdəndir. "SOCAR Polymer" layihəsi, Pirallahı Sənaye Parkında əczaçılıq müəssisəsinin yaradılması, Gəncə Avtomobil Zavodunun Rusiyanın "Kamaz" və "Ural" zavodları ilə əməkdaşlığı, "Azərmaş" və "QAZ" şirkətləri arasında birgə layihələrin reallaşdırılması qarşılıqlı investisiya qoyuluşu sahəsində önəmli layihələrdən sayılır. Azərbaycanda təqribən 760 Rusiya kapitallı şirkət fəaliyyət göstərir. Rusiya şirkətləri Azərbaycanda həyata keçirilən layihələrdə podratçı qismində də iştirak edirlər.

Qeyd edilib ki, Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və ticarət dövriyyəsinin həcmində müsbət artım dinamikası müşahidə edilir. Rusiya idxala görə Azərbaycanın əsas tərəfdaşıdır, qeyri-neft məhsullarımızın ixracı üzrə isə birinci yerdədir. Azərbaycanın xaricdə ilk ticarət nümayəndəliyi məhz bu ölkədə fəaliyyətə başlayıb. Bakıda Rusiya İxrac Mərkəzinin nümayəndəliyinin açılması, Moskvadakı Ümumrusiya Sərgi Mərkəzində yaradılan Azərbaycan pavilyonu iqtisadi-ticarət əlaqələrinin inkişafına əhəmiyyətli töhfələrdir. İxracın genişləndirilməsi, "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə Rusiyaya ixrac missiyaları təşkil edilir, Azərbaycan şirkətləri Rusiyada keçirilmiş önəmli sərgilərdə vahid ölkə stendi ilə təmsil olunur. Ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması məqsədilə Azərbaycan istehsalı olan aksizli malların ixracı üçün Azərbaycan-Rusiya sərhədində xüsusi gömrük postunun yaradılması istiqamətində işlər aparılır.

Şahin Mustafayev onu da diqqətə çatdırıb ki, bu ilin mayında Həştərxanda Heydər Əliyev Fondunun dəstəyi ilə açılmış Azərbaycan İş Mərkəzi iqtisadi əlaqələrin genişlənməsində xüsusi əhəmiyyətə malikdir. Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuraları iş adamları arasında əməkdaşlığın inkişafında önəmli rol oynayır.

2019-cu ildə Azərbaycanın Moskvada 2 şərab evinin açılması nəzərdə tutulur. Növbəti mərhələdə isə Rusiyanın Yekaterinburq və Sankt-Peterburq şəhərlərində Azərbaycan Şərab evlərinin açılması nəzərdə tutulur.

Nəqliyyat və tranzit yükdaşımaları sahəsinin ikitərəfli əməkdaşlığın uğurlu istiqamətlərindən olduğunu qeyd edən nazir Şahin Mustafayev "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"nin reallaşdırılan mühüm layihələrdən olduğunu, nəqliyyat dəhlizi vasitəsilə əvvəlki illə müqayisədə 100 dəfə çox yük daşındığını bildirib. O, Rusiya ilə birgə həyata keçirilən Samur sərhəd çayı üzərindən körpünün tikintisinin davam etdiyini də diqqətə çatdırıb.

Nazir Şahin Mustafayev energetika, kənd təsərrüfatı, nəqliyyat, kiçik və orta sahibkarlıq, turizm, təhsil və digər sahələrdə də Azərbaycan-Rusiya əməkdaşlığına dair məlumat verib, Rusiya-Azərbaycan-İran enerji sistemlərinin birləşdirilməsinin əhəmiyyətini qeyd edib.

O da diqqətə çatdırılıb ki, bu ilin 9 ayında Azərbaycana gələn Rusiyalı turistlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 20 faiz artıb.

İki dövlət arasında təhsil sahəsində də qarşılıqlı əməkdaşlıq uğurla inkişaf edir. Belə ki, Azərbaycanda M.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları, təhsilin rus dilində aparıldığı və ya rus bölməsinin olduğu məktəblər və ali təhsil müəssisələri fəaliyyət göstərir. Rusiyanın müxtəlif ali məktəblərində 11 mindən çox azərbaycanlı tələbə təhsil alır.

Regionlararası münasibətlərin ölkələrimiz arasında ikitərəfli əlaqələrin prioritet sahələrindən olduğunu vurğulayan nazir Şahin Mustafayev Azərbaycanın Rusiyanın 80-ə yaxın federal subyekti ilə ticarət və iqtisadi əlaqələrinin olduğunu, onların təqribən 20-si ilə ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq haqqında sazişlər imzalandığını bildirib.

Rusiyanın iqtisadi inkişaf naziri, dövlət komissiyasının həmsədri Maksim Oreşkin Azərbaycan və Rusiyanın strateji tərəfdaşlar olduğunu, dövlət başçılarının əməkdaşlığın daha da genişləndirilməsinə böyük önəm verdiklərini, yüksək səviyyəli intensiv qarşılıqlı səfərlərin bunun bariz nümunəsi olduğunu vurğulayıb. Rusiyalı nazir 2018-ci ilin ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı baxımından uğurlu olduğunu və Rusiya-Azərbaycan əməkdaşlığının gələcəkdə daha da genişlənəcəyinə əminliyini bildirib. Maksim Oreşkin bir sıra sahələrdə, o cümlədən ticarət və investisiya sahəsində iqtisadi əlaqələrin inkişafında müsbət dinamikanın olduğunu qeyd edərək, 2019-cu ildə ölkələrimiz arasında həyata keçirilməsi razılaşdırılmış əməkdaşlıq sahələri üzrə işlərin davam etdirilməsinin vacibliyini diqqətə çatdırıb.

Hökumətlərarası Dövlət Komissiyasının 17-ci iclası çərçivəsində müxtəlif sahələrdə Azərbaycan-Rusiya əməkdaşlığına, ölkələrimiz arasında birgə həyata keçirilən layihələrə, iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsinə dair müzakirələr aparılıb, nümayəndə heyətlərində təmsil olunan rəsmi şəxslərin çıxışları dinlənilib.

Sonda dövlət komissiyasının 17-ci iclasının yekunlarına dair protokol imzalanıb. Sənədi komissiyanın həmsədrləri - Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkin imzalayıblar. İclas çərçivəsində müzakirə olunmuş məsələlərin və komissiyanın gələcək fəaliyyət istiqamətlərinin əksini tapdığı sənəddə iqtisadi-ticarət, sənaye, kənd təsərrüfatı, nəqliyyat, İKT, turizm, humanitar, səhiyyə və s. sahələrdə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

Dövlət komissiyasının iclası çərçivəsində həmçinin Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və "İşgüzar Rusiya" təşkilatı arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İranın informasiya və milli təhlükəsizlik naziri Bibiheybət məscid-ziyarətgah kompleksində olub

İran İslam Respublikasının informasiya və milli təhlükəsizlik naziri Seyid Mahmud Ələvi dekabrın 15-də Bibiheybət məscid-ziyarətgah kompleksini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə qonağa kompleks haqqında məlumat verib. Bildirilib ki, VII əsrin yadigarı, müqəddəs qəbirlərin sayına görə islam dünyasının üçüncü ziyarətgahı sayılan Bibiheybətdə Peyğəmbər nəslinin 4 nümayəndəsi uyuyur. İmam Museyi Kazımın qızı həzrəti Hökümə xanımın məzarı da bu ziyarətgahdadır. Azərbaycanın say-seçmə övladları ilə yanaşı, maddi-mədəniyyət abidələrimiz, o cümlədən xalqımızın iman və inanc yeri olan Bibiheybət ziyarətgahı da sovet dövründə repressiyaya məruz qalıb.



Azərbaycanın müasir tarixində müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin prinsipial mövqeyi, iradəsi, milli-mənəvi dəyərlərimizə dərindən bağlılığı sayəsində bu ziyarətgaha yenidən həyat verilib. Ümummilli lider 1994-cü ilin martında Qurban bayramı günündə bu müqəddəs ocağı ziyarət edib, 1997-ci il iyulun 23-də, Peyğəmbərin mövludu günündə burada yeni məscid kompleksinin bünövrəsini qoyub. Bir il sonra, yenə də Peyğəmbərin mövludu günündə məscidin əsas korpusunun açılış mərasimində iştirak edib.

Heydər Əliyev ideyalarına sadiq qalan və onu uğurla davam etdirən Prezident İlham Əliyevin maddi-mədəniyyət abidələrimizin, müqəddəs ocaqlarımızın bərpası ilə bağlı imzaladığı fərman və sərəncamlar, verdiyi tapşırıqlar sırasında Bibiheybət məscid kompleksinin genişləndirilməsi də əksini tapıb. Dövlət başçısı 2005-ci ilin oktyabrında və 2007-ci ilin dekabrında buranı ziyarət edərkən fikirlərini bölüşüb, tövsiyələrini verib. Bununla da müsəlman dünyasının müqəddəs ziyarətgahlarından olan Bibiheybət məscidinin inşası sürətləndi. Prezident İlham Əliyev tikintinin gedişini daim diqqətdə saxlayıb, qarşıya çıxan problemlər dərhal həll olunub, qısa müddətdə bu müqəddəs ocaq tanınmaz dərəcədə dəyişib, nəfis və möhtəşəm görkəm alıb.

# Baş prokuror Xızı rayonunda vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq baş prokuror Zakir Qaralov dekabrın 15-də Xızı Rayon Prokurorluğunun inzibati binasında Sumqayıt şəhər, Xızı, Abşeron, Qubadlı və Zəngilan rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabeli prokurorların iştirakı ilə keçirilən qəbulda baş prokuror bölgədə yaşayan 22 vətəndaşın müraciətini dinləyərək qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabeli rayon prokurorlarına müvafiq göstərişlər verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerində həllini tapıb, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

# *Ziyad SƏMƏDZADƏ:* "Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərinə bir çox ölkələrdən daha tez nail olacaq"

Gürcüstanın paytaxtı Tbilisidə II Beynəlxalq Tbilisi Həmrəylik və İnnovativ Maliyyələşdirmə Forumu (TISIFF-2018) keçirilir. AZƏRTAC xəbər verir ki, Azərbaycanı bu tədbirdə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə təmsil edir.

Gürcüstan hökuməti, parlamenti və iqtisadi inkişaf üçün innovativ qrupun qlobal katibliyi ilə birgə təşkil olunan forumda BMT-nin maliyyələşdirmə ilə məşğul olan milli və regional təşkilatlarının üzvləri, beynəlxalq inkişaf agentliklərinin və vətəndaş cəmiyyətinin nümayəndələri iştirak edirlər. Tədbirdə innovativ maliyyələşdirmənin təkmilləşdirilməsi, qlobal həmrəylik vergiləri və davamlı inkişaf məqsədlərinin maliyyələşdirilməsində mərkəzləşdirilməmiş məlumat bazalarının yeniləşdirilməsi məsələləri müzakirə olunub.

Ziyad Səmədzadə forumda çıxış edərək müzakirə olunan məsələlərə münasibətini bildirib. O, Azərbaycanın BMT-nin təşkilatçılığı ilə həyata keçirilən layihədə iştirakı, dayanaqlı inkişafa nail olmaq üçün ölkəmizdə görülən işlər, Azərbaycan dövlətinin məqsədyönlü iqtisadi siyasətinin uğurlu nəticələri barədə məlumat verib.

Tədbirlə əlaqədar Ziyad Səmədzadə jurnalistlərə müsahibəsində deyib ki, qloballaşan dünyada bütün resurslardan səmərəli istifadə hər bir ölkə üçün çox vacibdir. Azərbaycanda bu məsələyə xüsusi diqqət yetirilir. Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar, qeyri-neft sektorunun şaxələndirilməsi, insan kapitalından səmərəli istifadə ilə bağlı görülən işlər iqtisadi göstəricilərimizi daha da yaxşılaşdıracaq. Biz, Dayanıqlı İnkişaf Məqsədlərinə bir çox ölkələrdən daha tez nail olacağıq. Artıq bir sıra istiqamətlərdə - yoxsulluğun azaldılması, yeni iş yerlərinin yaradılması, dayanıqlı inkişafın sürətinin artırılması, dövlətlə sahibkarlar arasında münasibətlərin şəffaflığı və digər tədbirlər öz müsbət nəticələrini verir. Bu işdə biz beynəlxalq təcrübədən istifadə etməklə yanaşı, milli maraqlarımızı da nəzərə alırıq.

# "Made in Azerbaijan" brendinin "Şahdağ" möhürü



Azərbaycanda qeyri-neft sektorunun inkişafına verilən dövlət dəstəyi iqtisadiyyatın neftdən asılılığını arxa plana keçirib. Bunun bir səbəbi də ölkəmizin hər yerində bu sektorun inkişafı üçün yollar axtarılması mövcud potensialdan istifadə edilməsidir.

Onlardan biri də turizmin inkişafıdır. Təbiət gözəllikləri ilə zəngin bölgələrimizdə bunun inkişafı üçün yeni infrastruktur yaradılır, istirahət mərkəzləri açılır. Belə rayonlardan biri də Qusardır.

İlin bütün fəsillərində ölkəmizin şimal bölgəsində turistlərlə rastlaşmaq mümkündür. İsti aylarda gözoxşayan meşələri, qışda pambıq kimi ağappaq qara bürünmüş dağ və dərələri buraya gələnləri sanki ovsunlayır, onları təkrar-təkrar bu füsunkar diyara qayıtmağa məcbur edir.

Qusarın iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil etsə də, rayonun inkişafı daha çox turizmlə bağlıdır. Rayonda çoxsaylı mədəniyyət ocaqları, qalalar, tarixi keçmişimizi yaşadan adət-ənənələr var. Böyüklü-kiçikli onlarla şəlalənin yerləşdiyi Qusar turistlərin marağına səbəb olmaqla yanaşı həm də multikultural dəyərləri ilə seçilən bölgədir. Quba ilə yanaşı məkanda yerləşməsi ona olan marağı bir qədər də artırır. Belə ki, Qusara təşrif buyuran turist yaxınlıqdakı Qubanı da ziyarət edir. Bu da turist marşrutlarına əlavələr deməkdir.

Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində ərsəyə gələn "Şahdağ" Qış-Yay Turizm Kompleksi turistlərin marağını çəkən ən yaxşı məkanlardan biridir. Turistlərin axışdığı Qusar rayonu turizm bölgəsi kimi günü-gündən inkişaf edir. Bu isə rayona gələn turistlərin sayında artımla müşahidə edilir.

Dövlət tərəfindən də rayonda turizmin potensialının gücləndirilməsinə böyük maliyyə dəstəyi göstərilir. Xatırladaq ki, "Şahdağ" Qış-Yay Turizm Kompleksinin tikintisinə 2009-cu ildə başlanıb. Qusar şəhərindən 30 kilometr şimalda, dəniz səviyyəsindən 1.300-3.200 metr hündürlükdə, Şahdağ Milli Parkının ərazisində inşa edilən "Şahdağ" Qış-Yay Turizm Kompleksi bu dəstəyin konkret təzahürüdür.

Bu yerlərdə turizmin daha geniş miqyas alması, inkişafı üçün hər cür şərait var. Rayonun turizm sahəsində çalışanların isə əsas vəzifəsi əsrarəngiz təbiətin qoynunda mənalı istirahətin və xidmətin təşkilinin müasir tələblər səviyyəsində qurulmasına nail olmaqdır. Həm də dünyanı dolaşan turist üçün maraqla qarşılaşacaq nəyinsə hazırlanması gərəkdir. Çünki gəzdiyi yerlərdən fərqlisini görəndə o, buralara bir də dönəcək. Odur ki, yeni layihələr həyata keçirilməli, infrastruktur dəyişiklikləri aparılmalıdır.



Qusar rayonunda bu sahədə xeyli iş görülüb. Bu gün rayonda turizmin dağ, meşə, qış, yay, kənd kimi növləri formalaşmaqdadır. Göstərilən istiqamətlərdə lazımi şəraitin yaradılması bu sahəyə cəlb olunanların sayının artmasına gətirib çıxarır. Əsasən qış aylarında dağ turizminə üstünlük verənlər ilin digər fəsillərində də bu məkana gələrək müxtəlif turizm marşrutlarından yararlanmağa çalışırlar.

Yayda rayonun kəndlərində, hotellərdə boş yer tapmaq çətin olur. Turizm işi burada yaxşı təşkil olunub. Rayon mərkəzində, park və xiyabanlarda xüsusi bələdçilər turistlərə yol göstərmək üçün fəaliyyət göstərir. Bundan əlavə, əgər qonaq gedəcəyi yeri müəyyənləşdiribsə, ona əvvəlcədən hazırlanmış xəritə təqdim edirlər. Artıq istirahət edəcəyi yeri bilən turist birbaşa istədiyi əraziyə yollana bilir.

Amma turistlərin ən çox dincəlmək istədiyi yer "Şahdağ" Qış-Yay Turizm Kompleksidir. O, dünyadakı bu tipli komplekslərdən nadirliyi və unikallığı ilə fərqlənir.

Adıçəkilən turizm kompleksinin Qusarda işsizlik probleminin həllində, rayonda, sahibkarlığın, sənətkarlığın inkişafında, büdcə gəlirlərinin artmasında, infrastruktur sahələrinin sürətlə yenidən qurulmasında əsaslı rolu var. Bu layihə ölkəmizin turizm sektoruna qoyulan ən böyük sərmayədir. Kurort fəaliyyətə başlayandan bəri yüzlərlə yeni iş yeri açılıb. Hazırda turizm kompleksində yaxın rayonlardan da xeyli sayda gənc çalışır.

Respublikamızda keçirilən idman turnelərində, I Avropa və IV İslam Həmrəyliyi Oyunları zamanı bu kompleksi seçən turistlər özlərilə ölkələrinə qucaq dolusu sevinc aparmış, çoxları yenidən qayıdaraq dəfələrlə bu istirahət guşəsinə səyahət etmişlər.

"Şahdağ" Qış-Yay Turizm Kompleksində ilin bütün fəsillərində hər kəsin maraq dairəsinə və bacarığına uyğun müxtəlif əyləncələr təşkil olunur. Məsələn, aktiv əyləncəyə üstünlük verənlər üçün xüsusi dağ velosipedi və ya sərbəst velosiped turu, fərqli əyləncə növlərini və sürəti sevənlər üçün trottinet, seqvey - mobil platforma, kvadrotsikl, bob kart kimi nəqliyyat vasitələri, sadəcə təmiz dağ havası, ruhu dinləndirən sakitlik və möhtəşəm mənzərələrdən zövq almaq istəyənlər üçün at sürmə, dağlarda gəzinti, adrenalin sevənlər üçün kanatla yüksəklikdən sürüşmə - ziplayn, macəra parkı, peyntbol, azyaşlı turistlər üçün isə hava qəsrlərindən ibarət mini kvadrotsikllər kimi əyləncə növləri təklif olunur.

Bundan əlavə ailəvi istirahət etmək istəyənlər üçün də bir neçə əyləncə növünün daxil olduğu xüsusi paketlər hazırlanıb. Şahdağda ən maraqlı əyləncələrdən biri isə paraplan uçuşları vasitəsilə 2250 metr hündürlükdən bütün ərazini seyr edə, eləcə də bu adrenalin dolu anları və inanılmaz görüntüləri GoPro kamerası ilə çəkib dostlarla paylaşmaqdır.

Kanat yolları 6 yaşdan kiçik uşaqlar, 70 yaşdan böyük vətəndaşlar, veteranlar və fiziki məhdudiyyətli insanlar üçün pulsuz olaraq fəaliyyət göstərir. Qeyd edək ki, bütün əyləncələrdən istifadə zamanı turistlər hər cür təhlükəsizlik vasitələri ilə təmin edilir və daim bələdçilərin nəzarəti altında olurlar.

Ötən qış mövsümündə "Şahdağ" Qış-Yay Turizm Kompleksini 40 mindən artıq turist ziyarət edib. Səudiyyə Ərəbistanı, BƏƏ, Pakistan, Rusiya, Küveyt və İsrail kimi ölkələrdən olan turistlər bu siyahıda üstünlük təşkil edirlər.

Qış qapının ağzındadır. Yəqin ki, qış fəslində bu kompleksi hələ çox insan görməyə gələcək və turizm ənənələrinə yiyələnən Qusarı gəzəcəklər. Beləliklə, turistlərin dillərində və gözlərində xatirəyə çevrilən Şahdağ möhürü Azərbaycan brendi olaraq daha da genişlənəcəkdir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Kənd xanımlarının biznesə qoşulması dəstəklənir

Dövlətin son illər xüsusi diqqət ayırdığı sahələrdən biri də kəndlərdə əhalinin məşğulluq səviyyəsini və aqrar bizneslərin sayını artırmaq məqsədilə innovativ layihələrin tətbiqində qadınların iştirakını təmin etməkdir.

Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti artıq müəyyən müddətdir ki, bir sıra banklarla əlaqələrini qurur, onlarla müqavilələr bağlayır və müvəkkil kredit təşkilatları kimi əməkdaşlıq edir. Bu ilin yayında fermerlərə güzəştli şərtlərlə kredit vermək üçün "Rabitəbank" Açıq Səhmdar Cəmiyyəti ilə niyyət protokolu imzalanmışdır. "Rabitəbank"ın mövcud vəziyyəti, xidmət səviyyəsi və əhatə dairəsi onu etibarlı tərəfdaşa çevirməyə, fermerlərə əlçatan etməyə imkan verir.

Qeyd edək ki, adıçəkilən Dövlət Xidməti kreditlərin verilməsində şəffaflığı təmin, aqrar sahə üçün kreditləri daha əlçatan edir, eləcə də bank və kredit təşkilatlarının geniş təbəqəsini kənd təsərrüfatı kreditlərinin verilməsinə cəlb etmək üçün banklarla əməkdaşlığını dünya təcrübəsinin müasir tələbləri səviyyəsində qurur.

Dövlət Xidməti bu məqsədlə bir sıra bank və kredit təşkilatları ilə əməkdaşlığı dayandırsa da, tərəfdaşları sırasına yeni bank və bank olmayan kredit təşkilatları (BOKT) ilə münasibətləri daha intensiv inkişaf etdirir. İndiyədək "Azərbaycan Beynəlxalq Bankı", "Paşa bank", "Kapital bank", "Turanbank", "Rabitəbank" ASC-ləri, "Aqrarkredit", "Finoko", "Finans İnvest" BOKT-ləri ilə niyyət protokolları imzalanıb. Bu ilin sonunadək Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti müvəkkil banklar vasitəsilə fermerlərə 10 milyon manatadək kredit verəcək.

Eyni zananda kredit fəaliyyətini genişləndirmək məqsədilə fermer və sahibkarlardan daşınan əmlakı, təsərrüfatı girov kimi qəbul etmək və başqa yeni girov mexanizmlərinin tətbiqi də diqqətdə saxlanılır.

Məlumat üçün bildirək ki, kreditlərin məbləği 1000-200000 manat, illik faiz dərəcəsi 7 faiz, kreditlərin ödəmə müddəti 1-5 il arasındadır. Məqsəd bütün regionlarda yaşayanların maddi durumunu yaxşılaşdırmaqdır. Bu layihəni həyata keçirən filiallar Bərdə, Ucar, Şəki, Salyan, İmişli, Gəncə, Xaçmaz, Qazax, Şamaxı və Lənkaranda yaradılmışdır. Kreditləşmədən fiziki və hüquqi şəxslər, ailə kəndli fermer təsərrüfatları, istehsalçı qruplar, kredit ittifaqları və fərdlər yararlanırlar.

Dövlət kənd yerlərində yaşayan qadınlara da xüsusi qayğı ilə yanaşır. Kənd yerlərində yaşayan əhalinin yarıdan çoxunu qadınlar təşkil etdiyini nəzərə alsaq, onların da işlə təmin edilməsi ailənin rifahı üçün böyük əhəmiyyət kəsb edir. Bu baxımdan, Dövlət Xidmətinin əsas hədəflərindən biri qadınların kənd iqtisadiyyatında fəallığını təmin etməsidir. Xidmətin layihələri çərçivəsində düşünülən modellər kənd qadınlarına imkan verir ki, dövlətin kiçik biznesin inkişafına verdiyi maddi dəstəkdən yararlansınlar, biznes ideyalarını reallaşdırmaq istiqamətində həyatın biznes sınaqlarından keçsinlər. Bu model, həmçinin eyni məhəllədə yaşayan, azdan-çoxdan bir-birini tanıyan 5-10 qadının birlikdə işbirliyi qurmasına şərait yaradır. Dövlət onun marağındadır ki, birlikdə çalışan xanımlar fəaliyyət bacarıqlarını, maliyyə savadlarını artırsınlar, biznesin inkişafı və idarə edilməsində faydalı təcrübə qazansınlar, yeni ideyaların tətbiqinə təkan verə bilsinlər, eləcə də ağıllı kənd bizneslərinin yaradılmasında texnologiyalardan istifadəyə, qarışıq maliyyə vəsaitlərinə çıxış əldə etməyə alışsınlar.

Artıq 5 rayonda - Masallı, Ağdam, Lənkəran, İsmayıllı və Balakən rayonlarında pilot layihələri kimi 100-ə yaxın qadından ibarət 6 Qadın İnkişaf Qrupu təsis edilib. Rayonlarda gənclərdən ibarət İcma Biznes Təbliğatçıları qrupları da yaradılıb. İlkin biznesin inkişafı və idarə edilməsi proqramı üzrə təlim alan gənclər qadın qruplarına gəlir gətirə bilən təkliflər hazırlamaqda kömək edəcək və onları maliyyə mənbələri və bazarlarla əlaqələndirəcəklər.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Xalq artisti Emin Ağalarov Heydər Əliyev Sarayında geniş konsert proqramı ilə çıxış edib





Azərbaycanın xalq artisti, tanınmış müğənni və bəstəkar, bir sıra nüfuzlu müsabiqələrin laureatı, "Jara" Beynəlxalq Musiqi Festivalının təşkilatçısı Emin Ağalarov dekabrın 14-də Heydər Əliyev Sarayının səhnəsində geniş konsert proqramı ilə çıxış edib.



AZƏRTAC xəbər verir ki, konsertin tamaşaçıları sırasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da olub.

Konsertdən əvvəl çıxış edən E.Ağalarov ona göstərilən dəstəyə və yaradıcılığına verilən yüksək qiymətə görə tamaşaçılara minnətdarlığını bildirib. Müğənni deyib: "Doğma səhnədə çıxış etmək böyük məsuliyyət və böyük şərəfdir. Səmimi sevgiyə görə çox sağ olun. Mən Azərbaycanı çox sevirəm, burada böyük məmnuniyyətlə çıxış edirəm".

Konsertdə "Moy Azerbaydjan", "Davay sbejim v Baku", "Naçistatu", "Still", "Amor", "Ya luçşe vsex jivu" və digər hitlər səslənib. Eminin ifasında dahi Müslüm Maqomayevin əfsanəvi "Mavi əbədiyyət" mahnısı konsertin kulminasiya nöqtəsi olub.

"Müslüm Maqomayev unikal səsə sahib idi. Onun xatirəsi daim yaşayacaq. Şadam ki, mən bu gün bu mahnını sizin üçün ifa etdim", - deyə Emin qeyd edib.

Bakılı tamaşaçılar xalq artistinin konsertini sürəkli alqışlarla qarşılayıblar.

Sonda müğənni səmimi qəbula görə tamaşaçılara bir daha təşəkkür edib. E.Ağalarov deyib: "Konsertə gələn hər kəsə, xüsusilə də Leyla Əliyevaya məni dəstəklədiyinə görə təşəkkür edirəm. Leyla Əliyeva böyük ürəyə malik çox gözəl insandır".

# İdmanın yüksəlişi Azərbaycanın ümumi inkişafından qaynaqlanır

*Əvvəli 1-ci səh.*

Cəmi 21 il ərzində ölkənin idman infrastrukturu müasir tələblər səviyyəsində tamamilə yenidən qurulmuş, milli müstəqilliyin bərpasından əvvəl elə bir idman uğuru ilə yadda qalmamış Azərbaycan nəinki beynəlxalq turnirlərdə misilsiz uğurlara imza atmış, həm də irimiqyaslı idman tədbirlərinə evsahibliyi etmək bacarığı nümayiş etdirmişdir. Təkcə I Avropa Oyunlarının Yay Olimpiya Oyunları səviyyəsində təşkilini qeyq etmək kifayətdir. Beynəlxalq idman ictimaiyyəti Azərbaycanın dünya idmanına, xüsusilə beynəlxalq olimpiya hərəkatına verdiyi töhfəni həmişə layiqincə qiymətləndirir. Vaxtilə Beynəlxalq Olimpiya Komitəsinin prezideni Jak Roqq milli olimpiya komitələrinə müraciət edərək demişdi ki, "Azərbaycan Milli Olimpiya Komitəsi başqa olimpiya komitələri üçün örnək olmalıdır, Azərbaycan Milli Olimpiya Komitəsindən nümunə götürməlisiniz".

Milli Olimpiya Komitəmiz fəaliyyətini, həmişə olduğu kimi, indi də uğurla davam etdirir, ölkə idmanının inkişafı naminə yeni-yeni addımlar atır. Dekabrın 13-də MOK-da cari ilin idman yekunlarına həsr olunmuş mərasimdə əldə olunmuş uğurlardan bəhs olundu, gələcək planlar müzakirə edildi. Pespublika Prezidenti, MOK-un prezidenti İlham Əliyevin iştirak etdiyi tədbirdə vurğulandı ki, həmişə olduğu kimi, idmanımız bu ili də zəfərlə başa vurur, idmançılarımızın beynəlxalq turnirlərdə ölkəni layiqincə təmsil etməsi qürur doğurur.

Prezident İlham Əliyev mərasimdə çıxış edərkən idmançılarımızın bu il əldə etdikləri nailiyyətlərdən söz açdı, təmsilçilərimizin dünya, Avropa çempionatlarında və digər beynəlxalq turnirlərdə 800-ə yaxın medal, o cümlədən 263 qızıl medal qazanmasını məmnunluqla qeyd etdi. Dövlət başçısı belə bir məqamı növbəti dəfə vurğuladı ki, "Bu qələbələr sadəcə olaraq idman qələbələri deyil. Çünki hər bir belə möhtəşəm qələbə cəmiyyətimizin vətənpərvərlik ruhunu artırır, Azərbaycanı dünyada güclü idman ölkəsi kimi tanıtdırır, Azərbaycanı təbliğ edir. Bu qələbələr gəncləri idman bölmələrinə aparır, idmanın kütləviliyini təmin edir".

Prezident qeyd etdi ki, idman infrastrukturunun yaradılması istiqamətində böyük uğurlar əldə edilmişdir. Təkcə bölgələrdə 44 Olimpiya İdman Kompleksi tikilib istifadəyə verilmişdir. Bu il bir kompleks inşa olunmuşdur, gələn il isə üç kompleksin tikintisi nəzərdə tutulur. Beləliklə, onların sayı 47-yə çatacaq.

Məlum olduğu kimi, Azərbaycanın evsahibliyi etdiyi beynəlxalq turnirlər ölkəyə turist axınını gücləndirir. Dövlət başçısı çıxışında qeyd etdi ki, turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz, bu ilin 11 ayında 6 faizdən çox artmışdır. Əvvəlki illərlə müqayisədə artım bir qədər aşağı olsa da, fakt odur ki, baza artır. Bakının mərkəzində keçirilən "Formula-1" yarışının turistlərin cəlb edilməsində xüsusilə çox böyük rolu var.

İdmançılarımız həmişə dövlət qayğısı ilə əhatə olunublar. Dövlət başçısının qeyd etdiyi kimi, hər bir nəticə, hər bir uğur qiymətləndirilməlidir. Ənənəvi olaraq ilin sonunda idmançılara yüksək dövlət mükafatları, pul mükafatları və mənzillər təqdim olunur. Bu il də mükafatlar verildi, o cümlədən uğurları ilə yadda qalmış idman xadimlərinə 25 mənzil ayırmaq qərara alınmışdır.

Təbii ki, idmançılarımız qazanılmış uğurlarla kifayətlənə bilməzlər. Onları gələn il mötəbər yarışlar gözləyir. Təmsilçilərimiz qarşıdan gələn mübarizəyə indidən hazırlaşırlar.

Digər tərəfdən, ölkəmiz beynəlxalq idman tədbirlərini təşkil etmək ənənəsini davam etdirir. Gələn il Bakıda Avropa Gənclər Olimpiya Festivalı keçiriləcək. Bu, gənclər arasında Avropa Oyunlarının bir növüdür. Səlahiyyətli orqanlar bu tədbirə də ciddi hazırlaşır. Qazanılmış təcrübə deməyə əsas verir ki, bu mühüm idman tədbiri də yüksək səviyyədə təşkil olunacaq. Gələn il paytaxtımız ilk dəfə olaraq UEFA Avropa Liqasının final görüşünə evsahibliyi edəcək. Belə bir matçın Bakıda keçirilməsinə nail olmaq o qədər də asan məsələ deyil. Bir çox şəhərlər bu istiqamətdə mübarizə aparır. Məhz ölkəmizin ümumi inkişafı, yaradılmış infrastruktur, idman obyektləri, Olimpiya stadionunun istifadəyə verilməsi, müasir hotellərin inşası, təhlükəsizliyin təmin olunması, xalqımızın qonaqpərvərliyi və digər amillər bu qərarın verilməsində həlledici rol oynamışdır.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Heydər Əliyev Fondu uşaq evlərinin sakinləri üçün əyləncə proqramı təşkil edib





Heydər Əliyev Fondu uşaq evlərinin sakinləri və internat məktəblərinin şagirdləri üçün növbəti şənlik proqramı təşkil edib.

AZƏRTAC xəbər verir ki, Xətai rayonundakı idman-əyləncə park kompleksində təşkil olunan budəfəki əyləncə Yeni il bayramı ərəfəsinə təsadüf edib. Uşaqlar dostları ilə birlikdə parkda quraşdırılan Yeni il yolkası ətrafında, fayton, avtobus, qatar və digər attraksionlarda maraqlı gün keçiriblər, müxtəlif yarışlarda iştirak ediblər.

Parkda uşaqlar üçün musiqili proqram da təqdim olunub.

Tədbir çərçivəsində ərazidə "Toplan" sahibsiz itlərə Qayğı Mərkəzinin maarifləndirmə guşəsi yaradılıb. Burada uşaqlara "Toplan" Qayğı Mərkəzinin fəaliyyəti barədə məlumat verilib, itlərin şousu təqdim olunub. Qeyd edək ki, idman-əyləncə park kompleksi istifadəyə verildiyi gündən şəhər sakinləri və qonaqların sevimli məkanına çevrilib. Park ərazisində asudə vaxtın səmərəli keçirilməsi məqsədilə müxtəlif əyləncə və idman qurğuları, modern incəsənət kompozisiyaları quraşdırılıb.

Yeni il ərəfəsində parkın bayram abhavasında - rəngarəng bəzədilməsi isə şəhər sakinləri və qonaqlara istirahətlərini daha da maraqlı, yaddaqalan keçirməyə imkan verəcək.

# Ölkəmizdə ilk dəfə meqa-şou - "Cırtdan nağıllar aləmində"









Bakı Konqres Mərkəzində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Cırtdan nağıllar aləmində" adlı ailəvi meqa-şou təşkil edilib. AZƏRTAC xəbər verir ki, tədbirdə fondun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

İlk dəfə təşkil edilən bu meqa-şoudan əvvəl mətbuat konfransı keçirilib. Bakı Konqres Mərkəzinin direktoru Ramin Qazızadə, rejissor İlham Qasımov, Cırtdan rolunu canlandıran aktyor İlham Süleymanlı və Talassemiya Mərkəzinin elmi işlər üzrə direktor müavini Ramin Bayramlı jurnalistlərin suallarını cavablandırıblar.

Sonra 40 artist zalda uşaqları müxtəlif səpkili oyunlarla əyləndirib. Ümumi olaraq oyunda 80 aktyor və rəqqas iştirak edib.

Şounun süjet xəttinə əsasən valideynləri Cırtdanı evdə qardaşı ilə birlikdə qoyaraq gedirlər. Bir müddət sonra Cırtdan qardaşını itirir və sonra onu axtarmağa başlayır. Qara qüvvələrə öz xeyirxahlığı ilə qalib gələn Cırtdan tamaşaçılara yaddaqalan və əlvan təəssürat bəxş edir. Göydən düşən ulduzlar, səmaya pərvaz edən əlvan pərilər Cırtdanla birlikdə tamaşaçıları sehrli aləmə aparır. Şounun sonunda Cırtdan qardaşına qovuşur və Məlikməmmədlə Əjdahanın köməyi ilə qara qüvvələr tərəfindən tilsimlənmiş Yeni ili geri qaytarırlar.

Şouda 300-dək əlvan kostyum, 120-dək müxtəlif oyuncaqdan istifadə edilib. Şou uşaqlarla yanaşı, böyüklər üçün də maraqlıdır. Bir sözlə, bənzərsiz, rəngarəng və yaddaqalan şou Yeni ildə tamaşaçıların zövqünü oxşayacaq və insanlar bu şoudan böyük zövq alacaqlar. Şou yanvarın 6-dək davam edəcək və ümumilikdə 17 seans olacaq. Xeyriyyə məqsədi daşıyan şoudan əldə olunan gəlir Talassemiya Mərkəzinə köçürüləcək.

Bu təşəbbüs bir daha sübut edir ki, humanistlik və xeyirxahlıq dəyərlərini fəaliyyətində əsas meyar kimi müəyyən edən Heydər Əliyev Fondu gələcəyimiz olan uşaqların milli ruhda böyüməsi, eyni zamanda, onların bəşəri dəyərlərə hörmət ruhunda tərbiyə almasına mühüm töhfələr verir.

Layihə xüsusi qayğıya ehtiyacı olan insanların, o cümlədən uşaqların sağlamlığının bərpa və təmin olunmasına Heydər Əliyev Fondu tərəfindən göstərilən dəstəyin ardıcıl xarakter aldığını nümayiş etdirir.

# Sağlamlıq imkanları məhdud uşaqlar üçün növbəti xeyriyyə aksiyası

Dekabrın 15-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Nargis" jurnalı və Fondu, Macarıstanın ölkəmizdəki səfirliyinin birgə təşkil etdiyi xeyriyyə konserti və yarmarkası keçirilib.














AZƏRTAC xəbər verir ki, tədbir gecənin qonaqlarının müxtəlif Macarıstan məhsullarını (şokolad, salyami və s.) əldə edərək xeyriyyəçiliyə töhfə vermiş olacaqları kiçik yarmarka ilə başlayıb.

Tədbirə tamaşaçı qismində 5 nömrəli internat məktəbinin şagirdləri və müəllim heyəti, eləcə də görmə qabiliyyəti olmayan və zəif görən müəllimlərdən ibarət 38 nömrəli musiqi məktəbinin müəllim heyəti dəvət olunub.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi Cəlil Məlikov və Macarıstanın Azərbaycandakı səfiri Viktor Sederkenyi çıxış edərək ölkələrimiz arasında mövcud iqtisadi, siyasi və mədəni əlaqələrdən söz açıblar.

Belə tədbirlərin keçirilməsini ən gözəl xeyirxah işlərdən hesab edən natiqlər bu işə dəstək göstərən hər bir kəsə təşəkkür ediblər.

Tədbirin əsas məqsədi 5 nömrəli Respublika Xüsusi İnternat Məktəbində oxuyan sağlamlıq imkanları məhdud uşaqlar üçün vəsait toplamaqdır. Vəsait əsasən, gözdən əlil və zəif görən uşaqların oxu və yazı bacarıqlarını mənimsəmələri üçün zəruri olan Brayl çap maşınını almağa yönəlib.

Sonra dünya şöhrətli macar pianoçu Endre Hegedyuş və skripkaçı Feliks Laykonun iştirakı ilə konsert proqramı təqdim edilib.

Endre Hegedyuş - virtuoz pianoçu, beynəlxalq müsabiqələrin mükafatçısı, Ferens Listin musiqi irsinin tanınmış interpretatorudur. O, 27 albom yazdırıb. Macarıstan teleşirkətləri onun konsert yazıları əsasında ümumi müddəti 18 saatdan çox olan 12 sənədli film istehsal ediblər. Otuz ildən artıq musiqi karyerası ərzində Endre Hegedyuş dünyanın yarısını gəzərək 2600-dən çox konsert verib.

Feliks Layko - skripkaçı və bəstəkar, sitar musiqi aləti ifaçısıdır. O, Kann Film Festivalı çərçivəsində "Qızıl Palma budağı" mükafatına layiq görülmüş Macarıstan bəstəkarı Kornel Mundrutsonun "Delta" adlı filmində baş rola çəkilib, əfsanəvi "Buto" rəqqası Mina Tanakinin çıxışını müşayiət edib, məşhur Serbiya truba ifaçısı Boban Markoviç və skripkaçı Aleksandr Balanesko ilə çıxış edib. Feliks Layko bir sıra teatr tamaşalarına musiqi yazıb, 1998-ci il "Sarayevo qışı" mədəniyyət festivalı marşının müəllifidir.

# “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018”in bağlanış tədbiri keçirilib





Dekabrın 15-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018”in bağlanış tədbiri keçirilib.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktorunun müavini Amina Əl-Həcri, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev və Təşkilat Komitəsinin üzvləri ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, ulu öndərin xatirəsinə ehtiramlarını bildirib, Heydər Əliyev Muzeyinə baxıblar. Sonra ulu öndərin abidəsi önündə xatirə şəkli çəkdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktorunun müavini Amina Əl-Həcri, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev və TÜRKSOY-un Baş katibinin müavini Fırat Purtaş “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018”in bağlanış tədbirində iştirak ediblər.

Tədbir “Qurani-Kərim”in tilavəti ilə başlayıb.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək deyib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin milli-mənəvi dəyərlərimizə, bütövlükdə mədəniyyətimizə göstərdiyi qayğı və müəyyənləşdirdiyi siyasi xətt bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması bir tərəfdən bu qədim türk yurdunun zəngin tarixi-mədəni irsi ilə bağlıdırsa, digər tərəfdən də müasir dövrdə bu dəyərlərin qorunub-yaşadılması sahəsində görülən işlərin nəticəsidir.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Naxçıvan şəhərinin 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında” 2016-cı il 2 iyun tarixli Sərəncamına əsasən 2017-ci il noyabrın 25-də və 2018-ci il iyunun 7-də Təşkilat Komitəsinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə iclaslar keçirilib, hazırlıq işləri ilə bağlı məsələlər müzakirə olunub və qarşıda duran vəzifələr müəyyənləşdirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 23 yanvar tarixli sərəncamına əsasən “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan - 2018” loqotipi hazırlanıb və nümayiş olunub. Həmçinin üzərində loqotip əks olunmuş 100 min zərf, 100 min poçt markası, markalardan ibarət 200 buklet, 500 döş nişanı və suvenirlər, “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan-2018”in rəsmi internet səhifəsi hazırlanıb. Naxçıvanın müasir görüntülərini, təbiətini, tarix-mədəniyyət abidələrini əks etdirən fotoşəkillər seçilərək aidiyyəti üzrə təqdim edilib və ISESCO-nun saytına yerləşdirilib. Tədbirlər Planına əsasən Naxçıvandakı türk-islam mədəniyyəti abidələrindən Möminə xatın, Yusif Küseyr oğlu, Gülüstan türbələrinin və Qarabağlar Türbə Kompleksinin ISESCO-nun siyahısına daxil edilməsi ilə bağlı müvafiq sənədlər hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.

2017-ci il iyulun 7-də “Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə” beynəlxalq konfrans, dekabrın 6-da “Ümummilli lider Heydər Əliyev dini həmrəyliyin yaradıcısıdır” mövzusunda konfrans keçirilib. “İslamda müdrik kəlamlar”, “Naxçıvan: türk-islam mədəniyyəti abidələri”, “Naxçıvan buzxanaları”, “Naxçıvan hamamları”, “Naxçıvan türbələri” kitabları, “Naxçıvan türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə” mövzusunda keçirilmiş beynəlxalq konfransın materialları, eləcə də məşhur naxçıvanlı mütəfəkkir Nemətullah Naxçıvaninin “Qurani-Kərim”in təfsirinə həsr olunmuş çoxcildliliyinin birinci cildi tərcümə edilərək nəşr olunub. Ötən müddətdə “Naxçıvan: türk-islam mədəniyyəti abidələri”, “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan” televiziya filmləri, “Naxçıvan-2018. İslam mədəniyyəti” video-çarxı hazırlanıb. 2018-ci il fevralın 21-də ümumtəhsil məktəblərinin şagirdləri üçün Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı kimi” mövzusunda interaktiv dərs keçirilib. 2018-ci ildə Şərur rayonunun Yengicə kəndindəki Şərq hamamında, Nehrəm imamzadəsində, Naxçıvan şəhər imamzadəsində və Kəngərli rayonundakı Qarabağlar Türbə Kompleksində əsaslı bərpa işləri aparılıb.

2018-ci il iyun ayının 20-də “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı - 2018”in açılışı olub. Açılış tədbirindən sonra muxtar respublikada bir sıra tədbirlər, o cümlədən dünya şöhrətli ebru sənətçisi, Türkiyə Böyük Millət Məclisinin sənət üzrə müşaviri Hikmət Barutcugilin əsərlərindən ibarət “Allahın gözəl adları” mövzusunda sərgi, dünya şöhrətli İran rəssamı və miniatür ustası Mahmud Farçciyanın sənət sərgisi, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun “Dədə Qorqud” Kamera Orkestrinin konserti, “İslam filmləri həftəsi”, “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı” mövzusunda beynəlxalq konfrans, bu gün isə TÜRKSOY-un təşkilatçılığı ilə “Türk İslam əxlaq fəlsəfəsinin qurucu memarları: Türküstandan Anadoluya irfan məktəbinin alimləri” adlı beynəlxalq konfrans keçirilib. “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı - 2018” tədbirləri çox mühüm ictimai-mədəni hadisə kimi qədim diyarımızın tarixində əbədi qalacaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: *“Azərbaycan müstəqillik qazandıqdan sonra Naxçıvan Muxtar Respublikasında İslam dəyərlərinə yeni yanaşmanın - elmi baxışın əsası qoyulmuş, türk-islam mədəniyyəti abidələri tədqiq olunmuş, Naxçıvan İslam mədəniyyətinin əsas inkişaf mərkəzi kimi bir daha öz təsdiqini tapmışdır”.*

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktorunun müavini Amina Əl-Həcri “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018”in bağlanış tədbirində iştirakından məmnunluğunu bildirib, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycrinin minnətdarlığını Ali Məclisin Sədrinə çatdırıb. Qeyd olunub ki, 5 min illik tarixə malik olan Naxçıvan Qafqazın ən qədim şəhərlərindən və mədəniyyət mərkəzlərindən biridir. İslam dünyasında mühüm coğrafi və strateji mövqeyə malik olan Naxçıvan şəhəri İslam alimləri tərəfindən yüksək qiymətləndirilib. Həmçinin Naxçıvan Şərq və Qərb, Avropa və Asiya arasındakı tarixi ticarət yollarının, mədəniyyət və təhsil əlaqələrinin kəsişməsində yerləşir. Tarixboyu Azərbaycan xalqının mühüm tarixi-mədəni irsinin yaşadıldığı Naxçıvan mədəniyyət və sivilizasiyalar arasında təmas vasitəsi olub və mühüm körpü funksiyasını yerinə yetirib. Özünün fərqli təbii, iqtisadi və mədəni potensialı olan qədim Azərbaycan şəhəri Naxçıvan öz zəngin maddi və qeyri-maddi mədəni irsini keçmişin təcrübəsindən faydalanaraq qoruyur və gələcəyə çatdırır.

Amina Əl-Həcri Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə bağlı keçirilən tədbirlərdən danışaraq bildirib ki, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə bağlı İslam Elm, Təhsil və Mədəniyyət Təşkilatı tərəfindən VII Beynəlxalq Klassik Musiqi Festivalı, ISESCO-nun Yaşıl Şəhər Strategiyasının həyata keçirilməsi ilə bağlı Azərbaycan, Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkiyə və Misirdən olan ekspertlərin iştirakı ilə regional toplantı, mədəni sənaye sahələrində investisiyaların əhəmiyyəti və gənclər arasında işsizliyin azaldılmasında onun rolu mövzusunda milli seminar, ekstremizm və islamafobiyaya qarşı mübarizə mexanizmi kimi vasitəçilik və dialoq mədəniyyəti üzrə milli seminar və digər tədbirlər keçirilib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının mədəniyyət naziri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsi sədrinin müavini Əbülfəs Qarayev deyib: Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Naxçıvan şəhərinin 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında” 2016-cı il 2 iyun tarixli Sərəncamı dövlət başçısının bu tarixi hadisəyə verdiyi böyük önəmin və Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətinin təzahürüdür. Təşkilat Komitəsi tərəfindən ötən dövrdə mühüm tədbirlər həyata keçirilib. Naxçıvan qədim tarixi və zəngin mədəniyyəti, müasir iqtisadi imkanları və inkişafı ilə İslam Mədəniyyətinin Paytaxtı statusunu ləyaqətlə dünyaya nümayiş etdirdi. Həmçinin 2018-ci ilin 26 noyabr - 1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin növbəti 13-cü sessiyasında qəbul edilən qərarla “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilmişdir. Məqsəd ölkəmizin qədim və tarixi ərazisi olan Naxçıvanda yaşayan əhalinin ənənəvi mədəniyyətinə və xalq yaradıcılığına dünya miqyasında işıq salmaq və tanıtmaq, eyni zamanda, bu ənənələri UNESCO səviyyəsində qorumaqdan ibarətdir. Bununla da Şərur, ələlxüsus “Köçəri” yallısını öz adına çıxmağa çalışan Ermənistanın “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” nominasiyasına qarşı təxribat xarakterli cəhdlərinin qarşısı alınıb, növbəti dəfə bu ölkəyə layiqli cavab verilib. Naxçıvanın İslam Mədəniyyət Paytaxtı olması bir illə məhdudlaşmır. Naxçıvan İslam sivilizasiyasının tarixi mədəni mərkəzlərindən biri olub və bundan sonra da bu adı əbədi qoruyub saxlayacaqdır.

Sonra “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018”in bağlanışı münasibətilə konsert olub. Azərbaycan Respublikasının xalq artisti Alim Qasımov və əməkdar artist Fərqanə Qasımova xalq mahnıları və muğamlarımızı məharətlə və böyük ustalıqla ifa ediblər. “Şərur” Xalq Yallı Ansamblının ifasında təqdim olunan “Köçəri” və “Tənzərə” yallıları da alqışlarla qarşılanıb.

Konsertdən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktorunun müavini Amina Əl-Həcri, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev və TÜRKSOY-un Baş katibinin müavini Fırat Purtaş səhnə arxasına keçərək ifaçılarla görüşüblər.

Ali Məclisin Sədri uğurlu konsert münasibətilə təbriklərini çatdıraraq deyib: Bugünkü konsertdə Alim Qasımov ilahi eşqlə və şövqlə oxudu. Bəlkə də qarşıdakı illərdə sizin daha gözəl konsertləriniz olacaq, amma bu konsert yaradıcılığınızın zirvəsi oldu. İmprovizələr, uzlaşmalar gözəl alındı və konsert naxçıvanlıların yaddaşında silinməz iz qoydu. “Şərur” Xalq Yallı Ansamblı da yallılarımızı məharətlə ifa etdi. “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilmişdir. Yallı bizim qədim irsimizdir. Ona görə də vaxtilə muxtar respublikada yallı sənətinin UNESCO səviyyəsində qorunması ilə bağlı tədbirlər həyata keçirilmiş, tədqiqatlar aparılmış, “Şərur” Xalq Yallı Ansamblının fəaliyyəti və Naxçıvanda yallı sənəti ilə bağlı məlumatlar hazırlanıb aidiyyəti üzrə təqdim olunmuşdur.

Ali Məclisin Sədri ifaçılara yeni yaradıcılıq uğurları arzulayıb.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktorunun müavini Amina Əl-Həcri deyib: İfa olunan mahnılar, muğamlar və yallılar Azərbaycan xalqının özünəməxsusluğunu, tarixini və zəngin mədəni irsə malik olduğunu göstərir. Bunlar, sadəcə, musiqi və rəqs deyil, həm də bir xalqın qədim tarixinin yaşadılmasıdır.

Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev deyib: Bugünkü konsertdə təqdim olunan bütün yaradıcılıq nümunələri UNESCO-nun siyahısına daxil edilib. Muğam ifaçılığı, tar, kamança və yallı bir daha təsdiq etdi ki, Azərbaycan xalqının yaratdığı incəsənət nümunələri bütün bəşəriyyətə məxsusdur. Bütün bunların bir arada “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018”in bağlanış tədbirində ifa olunması isə mühüm əhəmiyyətə malikdir. Çünki Naxçıvanda tarixin və mədəni irsin qorunub-saxlanılması və təbliği sahəsində kompleks işlər görülür.

Azərbaycan Respublikasının xalq artisti Alim Qasımov göstərilən diqqətə və yaradıcılıqlarına verilən yüksək qiymətə görə Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Sonra ifaçılarla və “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018”in bağlanış tədbirinin iştirakçıları ilə xatirə şəkilləri çəkdirilib.

Çingiz Aytmatov - 90

# Türkün böyük yazıçısı

**...O gün hava da ayrılıq qoxulu, tutqun, qaşqabaqlıydı... Payızın ilk günüydü. Yaşıl yarpaqlar hələ xəzan fəslinin gəlişindən xəbərsizdi. Ağaclar isə sanki ayrılığın soyuq nəfəsini hiss etdikləri üçün qüssəli görünürdülər. Balaca Çingiz anası, qardaşı və iki bacısı ilə Moskvanın Kazan Stansiyasında idi. Atası Torekul Aytmatov onları öz doğma vilayətinə - Qırğızıstanın şimalındakı Talas vilayətinin Şəkər kəndinə yola salırdı.**



## Çətin sual...

Torekul Aytmatov görkəmli dövlət xadimi, yeni formalaşan Qırğız Kommunist Partiyasının lideri idi. O, Moskvada məsul vəzifədə çalışırdı.

Çingiz 1935-ci ildə, yeddi yaşında ikən anası, qardaşı va bacıları ilə birlikdə atasının yanına gəlmişdi. Təhsilə də Moskvada başlamışdı. Orta məktəbin birinci və ikinci siniflərini orada oxumuşdu. Ancaq 1937-ci il Torekul Aytmatov ailəsini Moskvadan göndərməyə qərar verdi.

Uşaqlar üçün bu, gözlənilməz olmuşdu. Nə baş verdiyini anlamamış özlərini Kazan Stansiyasında görmüşdülər. Onları qatara mindirən atanın üzündə kədər kölgələnmişdi. Çingiz atasının onları niyə qəflətən Qırğızıstana yola saldığını başa düşmək istəyirdi. Qüssə içində ondan soruşdu: “Niyə gedirik?”

Balaca Çingiz atasına çox çətin sual vermişdi. Torekul Aytmatov övladlarına Stalin rejiminin artıq təqiblərə başladığını, başının üstündə dolaşan repressiya kabusunun anbaan yaxınlaşdığını, ailəsini qorumağın yeganə yolunu onları Moskvadan, öz yanından uzaqlaşdırmaqda gördüyünü söyləyə bilməzdi.

Qatar yola düşdü. Torekul Aytmatov perron boyu qaçaraq onlara əl edirdi. Çingiz də qardaş və bacıları kimi atasına əlini yelləyirdi. Bu, onun yaddaşında atasının son şəkliydi. Çingiz Aytmatovun hafizəsinə o ayrılıq qoxulu gün - 1937-ci ilin 1 sentyabrı belə həkk olurdu.

Sualına atasından ala bilmədiyi cavabı Çingiz özü tapacaqdı. Daha doğrusu, baş verən hadisələr Torekul Aytmatovun ailəsini Moskvadan uzaqlaşdırmaqda haqlı olduğunu göstərəcəkdi...

Çingizgil Şəkər kəndinə gəldilər. Çingiz Aytmatov 1928-ci il 12 dekabrda bu kənddə dünyaya göz açmışdı. Bu ucqar kəndə yığışan ailə intizar içərisində Torekul Aytmatovdan xəbər gözləməyə başladılar. Ancaq atasından səs-soraq yox idi. Nagima Aytmatova həyat yoldaşının başına gələnləri öyrənmək üçün partiya komitəsinə müraciət etdi. Ona Torekul Aytmatovun həbs olunduğunu söylədilər. Nagima Aytmatovaya nə məktub yazmaq, nə də cavab almaq icazəsi olmadığını da dedilər. Əslində, otuz beş yaşlı Torekul Aytmatovun artıq həyatda olmadığını ailəsindən gizlədirdilər. O, 1937-ci ildə həbs olunmuş, iki ay sonra güllələnmişdi.

## Fırtınalar içində keçən illər

...İllər bu həssas uşağın xatirələrində ağrılı izlər qoya-qoya ötüb keçirdi. Kəndlərində atasının nə isə pis iş gördüyü üçün güllələndiyini fikirləşənlər də var idi. Bəzən Çingiz Aytmatov insanlara öz soyadını söyləməkdən belə çəkinirdi. Amma yaxşı ki, başqa cür düşünənlər də az deyildi. Onlardan biri də Çingizin ibtidai sinif müəllimi idi. Bir gün müəllimi ona dedi: “Atanın adını deyəndə heç vaxt aşağı baxma, başa düşdün?” Müəlliminin sözləri uşağın fırtınalar qopmuş qəlbinə dayaq oldu, ona cəsarət verdi. Həyatının ən çətin anlarında o sözlərdən bərk-bərk yapışdı.

Doqquz yaşlı Çingiz anası və üç bacı-qardaşı ilə Şəkər kəndində ata nənəsi Ayımxanımın və bibisi Qaraqızın yanında yaşayırdı. Sinəsi qırğız xalq ədəbiyyatı - nağılları, əfsanələri ilə zəngin nənəsi onun ən böyük müəllimi oldu. Ondan öyrəndiklərini illər sonra qələmə alaraq yazıçı kimi şöhrət qazandı...

Onu qarşıda gözləyən böyük şöhrətdən xəbərsiz Çingiz Aytmatov yoxsulluq içərisində böyüyür, ümidsizliklə çarpışırdı. II Dünya müharibəsi başlayandan sonra ailələrinin güzəranı daha da ağırlaşdı. Onun milliyyətcə tatar olan, yerli teatrda aktrisa işləmiş, gözəl, kübar anası Nagima Aytmatovanı ağır, məhrumiyyətlərlə dolu həyat soldurur, sağlamlığını əlindən alırdı.

Nagima Aytmatova xəstələnib yatağa düşdü. Çingiz on dörd yaşında məktəbdən çıxmalı oldu. Yazıb-oxumağı bildiyinə görə kənd şurasında katiblik etməyə, evə qazanc gətirməyə başladı. Ancaq o günlərdə kənddə ən ağır iş də bu yeniyetmənin üzərinə düşdü. Çingiz Aytmatov cəbhədə həlak olmuş əsgərlər haqda məktubları evlərə çatdırmalı idi. Hər dəfə mənzil başına çatanda sanki ayaqları yerə sancılır, onu dəhşət bürüyürdü. Üstündə sovet ordusunun möhürü vurulmuş kağızı çətinliklə açırdı. Bu qısa məktubları hər dəfə oxuyanda ona elə gəlirdi ki, dünaynın ən yorucu işini görür. Analar elə yanıqlı nalə çəkirdilər ki, bütün təsəlli sözləri həmin anlarda mənasız görünürdü. Çüngiz Aytmatov nə bu dəhşətli mənzərəyə baxa, nə də çıxıb gedə bilirdi. Ürəyini bürüyən dözülməz kədər içində dayanıb baxmaqdan başqa çarəsi qalmırdı. Çəkdiyi iztirablar ona dərdlərə alışmağı deyil, dözməyi öyrədirdi.

Evlərə qara xəbər yollayan müharibə ürəklərdə sağalmaz yaralar açaraq bitdi. Müharibə ona nə qədər ağır günlər yaşatsa da, təhsil almaq arzusunu əlindən ala bilməmişdi. Çingiz Aytmatov 8 sinif bitirdikdən sonra Cambul Zootexnikumuna daxil oldu. Həmin təhsil ocağını əla qiymətlərlə bitirdi. 1948-1953-cü illərdə o, Bişkekdəki Kənd Təsərrüfatı Universitetində də əla qiymətlərlə oxudu. Ali təhsil aldıqdan sonra o, üç il Qırğızıstan SSR-in Maldarlıq Elmi-Tədqiqat İnstitutunda işlədi. Orada başqa bir məsələ meydana çıxdı. Atası Torekul Aytmatovun repressiya olunduğunu ona xatırlatdılar. Beləcə, Çingiz Aytmatov institutla vidalaşmalı, yeni bir yol başlamalı oldu. Bu yol onun həyatını tamamilə dəyişdi...

## Ədəbiyyat sevgisi

Əslində, qələmlə o vaxta qədər dil tapmışdı. 1952-ci ildə dövri mətbuatda onun qırğız dilində ilk əsərləri çap olunmuşdu. Çox sevdiyi ədəbiyyat getdikcə Çingiz Aytmatovu daha çox cəlb edirdi. 1956-cı ildə repressiya qurbanlarının əksəriyyəti kimi, onun atasına da bəraət verdilər. Yalnız bundan sonra Çingiz Aytmatov Moskvadakı ali ədəbiyyat kursuna yazıla bildi.

Kursu bitirdiyi il onun qırğız dilindəki “Üz-üzə” hekayəsinin rus dilinə tərcüməsi “Oktyabr” jurnalında işıq üzü gördü. Həmin il “Yeni dünya” jurnalında Çingiz Aytmatovun bir sıra hekayələri və yazıçıya dünya söhrəti qazandıran “Cəmilə” povesti dərc edildi.

İyirmi doqquz yaşında fransız yazıçı Louis Aragon onun “Cəmilə” əsərini çox bəyənərək dünyada ən gözəl sevgi hekayəti adlandırdı. Bundan sonra Çingiz Aytmatov bir-birindən uğurlu əsərlər yazdı. O, “Əsrə bərabər gün”, “Qırmızı yaylıqlı qovağım mənim”, “İlk müəllim”, “Ana tarla”, “Ağ gəmi”, “Dəniz kənarıyla qaçan alabaş”, “Köşək gözü”, “Erkən gələn durnalar”, “Qiyamət”, “Çingiz xanın ağ buludu”, “Oğulla görüş”, “Köçəri quşların göz yaşları”, “Balaca əsgər”, “Dəhnəçi”, “Qırmızı alma”, “Buynuzlu ana maral”, “Manqurt əfsanəsi”, “Öldürək-öldürməyək”, “Kassandra damğası”, “Əlvida Gülsarı” və digər əsərləri ilə dünya şöhrəti qazandı. Başqa dillərə tərcümə edilən bu əsərlər Çingiz Aytmatovu məşhurlaşdırdı, ona böyük məhəbbət qazandırdı.

Əsərlərini rus dilində yazması və dünyada yayılan “Novıy mir”, “Drujba narodov” kimi jurnallarında çap etdirməsi Çingiz Aytmatovun imzasını böyük sənət dünyasında tez tanıtdı. 1968-ci ildə “Əlvida Gülsarı” povestinə görə SSRİ Dövlət Mükafatına layiq görüldü. O, 1963-cü ildə Lenin, üç dəfə - 1968, 1977 və 1983-cü illərdə SSRİ dövlət mükafatına, 1978-ci ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü.

Əmək fəaliyyətinə bir zamanlar Qırğızıstandakı Çon-Arık sovxozunun zootexnikliyindən başlayan Çingiz Aytmatov Moskva ali ədəbiyyat kursunun məzunu kimi “Pravda” qəzetinin xüsusi müxbirliyinə, Qırğızıstan Kinematoqrafçılar İttifaqının sədrliyinədək yüksəldi. O, 1990-1994-cü illərdə əvvəlcə SSRİ-nin, sonra isə Rusiyanın Benilüks ölkələrindəki səfiri vəzifəsində işlədi. 2008-ci ilin martınadək Qırğızıstanın Fransada, Belkçika, Lüksemburq və Niderlanddakı səfiri oldu.

Çingiz Aytmatov 10 iyun 2008-ci ildə müalicə olunduğu Almaniyanın Nürnberq şəhərində yerləşən klinikada vəfat etdi.

O, ömrünün sonunadək kədərli uşaqlığını unutmadı. Moskvanın Kazan Stansiyasında atası ilə son görüşdən otuz il sonra anası həsrət, dərd içində dünyadan köçdü. Çingiz Aytmatov onun məzarına atasının adını da yazdırdı.

Əlli dörd il sonra isə Çingiz Aytmatov atası ilə “görüşdü”... Ölüm hökmü yerinə yetirilən 138 məhkumun birgə basdırıldığı kütləvi qəbiristanlıq aşkar edildi. Dəfn olunanlardan birinin cibində adı - Trekul Aytmatov yazılmış kağız vardı. Kağızı güllə dəlib keçsə də, ad aydın oxunurdu.

Minlərlə, milyonlarla insanı qətlə yetirən, ocağını söndürən sovet hakimiyyətinin millətə etdiyi zülmləri, milli kimliklərini unutdurmaq üçün hər cür qəddarlığa əl atdığını Çingiz Aytmatov bir sıra əsərlərində simvollaşdıraraq anlatdı. Dünya şöhrətli yazıçı yaradıcılığının zirvəsi sayılan “Əsrə bərabər gün” romanında da qırğız xalqının simasında əsarətdə yaşayan xalqların başına gətirilən fəlakətləri qələmə aldı.

Bu il türk dünyasının milli iftixarı sayılan yazıçının 90 yaşı tamam olur. Dünyada ədəbiyyat və ədəbiyyat sevdalıları yaşadıqca var olacaq Çingiz Aytmatovun əsərləri hər zaman insanlığa sevgini, haqqı, ədaləti anladacaq.

***Zöhrə FƏRƏCOVA, “Azərbaycan”***

**"Azərbaycan"a cavab verirlər**

## *"Azəriqaz" İB:* "Bəzi hallarda podratçı təşkilatların işçiləri ehtiyatsızlıqdan kommunikasiya xətlərini zədələyirlər"

### Amma abonentlərin narazılığı həm də operativ "104 - Çağrı Mərkəzi"indəndir

Qəzetimizin 2018-ci il dekabrın 1-i tarixli nömrəsində dərc olunmuş "Qış gəldi qaz qəhətə çıxdı və ya "Azəriqaz"ın Çağrı Mərkəzində ... virtuoz ifa" başlıqlı replikasına "Azəriqaz" İstehsalat Birliyindən cavab almışıq.

Xatırladaq ki, adıçəkilən replika paytaxtın Murtuza Muxtarov 185 A ünvanında yaşayan bir qrup sakinin 4 gün qazsız qalmaları barədə redaksiyamıza etdiyi şikayət əsasında hazırlanmışdır. Şikayətdə həmçinin sakinlərin problemlə bağlı "Azəriqaz" İB-nin "104 Çağrı Mərkəzi"nə zəng vura bilməmələri qeyd edilmişdir. Onu da nəzərə çatdıraq ki, şikayətin obyektivliyinə əmin olmaq üçün bizim tərəfimizdən hər iki fakt (həm qazın, həm də "104"ə zəng vurmağın mümkün olmaması) dönə-dönə yoxlanmış və yalnız bundan sonra problemin qəzet səhifəsinə çıxarılmasına qərar verilmişdir.

Elə "Azəriqaz" İB-nin baş direktoru Əkbər Hacıyevin imzası ilə aldığımız cavabda da şikayətçilərin yaşadığı ərazidə həqiqətən bir müddət qazın olmaması və bu səbəbdən təxminən 2000 abonentin qaz təminatında fasilə yarandığı etiraf edilmişdir. Məktubda həmçinin problemin səbəbinin Bakının mərkəzində tikinti-abadlıq və yenidənqurma işləri aparılarkən ehtiyatsızlıqdan həmin ərazilərdən keçən kommunikasiya xətlərinin zədələnməsi olduğu bildirilmişdir. O cümlədən məktubda konkret şikayətə də aydınlıq gətirilmişdir:

**"Nəzərinizə çatdırırıq ki, ...28.11.2018-ci tarixdə ... saat 21.20 radələrində Bakı şəhərinin "Sovetski" adlanan ərazisində dövlət proqramı çərçivəsində aparılan söküntü və yenidənqurma işləri ilə əlaqədar tikinti işlərini aparan tikinti təşkilatı qeyd olunan ərazidə "Azəriqaz" İB ilə razılaşdırılmadan qazıntı işləri aparılan zaman diametri 530 mm-lik orta təzyiqli "Yasamal-Botanika" qaz xəttinin Nərimanov küçəsindəki keçən hissəsini zədələyiblər. Baş vermiş qəza nəticəsində qaz kəmərinin qaz təchizatı dayandırılmış və nəticədə qeyd olunan ərazilərdə iki minə yaxın abonentin qaz təminatında məhdudiyyətlər yaranmışdır. Görülmüş texniki tədbirlər nəticəsində 29.11.2018-ci il tarixdə saat 22.35-dən etibarən kəmərin qaz təchizatı bərpa edilmiş və ərazinin qaz təminatında yaranmış problemlər aradan qaldırılmışdır"** *(üslub olduğu kimi saxlanmışdır).*

Əslində biz cənab Əkbər Hacıyevin imzaladığı məktubun sitat gətirdiyimiz bu hissəni dərc etməklə mövzuya "nöqtə" qoya bilərdik, təbii ki, "amma"sı olmasaydı. Əvvəla, məsələ bundadır ki, şəhərin mərkəzində yaşayan 2 min abonent, o cümlədən Murtuza Muxtarov 185A binasının sakinləri, məktubda qeyd olunduğu kimi, bir sutka yox, ən azından 4 gün qazsız qalmışlar. Sonrası, daha doğrusu ən əsası isə, həmin abonentlər bu 4 gün ərzində "104 Çağrı Mərkəzi"nə zəng vurub problemlərini çatdıra bilməmişlər. Əgər düşmək mümkün olmayan bu "qaynar xətt" başqa quruma, məsələn, İqtisadiyyat və Vergilər nazirliklərinə, Dövlət Gömrük Komitəsinə, lap elə deyək, taksi və kabel televiziyası operatorlarına aid olsaydı, harada isə bununla barışmaq mümkün idi, baxmayaraq ki, heç onların da adlarını "qaynar", "operativ", "çağrı" və s. qoyduqları xətlərinin nə susmağa, nə uzun müddət "məşğul" olmağa, nə də müxtəlif musiqi ifaları ilə vətəndaşları dəqiqələrlə gözlətməyə haqqı var.

İndiki halda isə söhbət "Azəriqaz"dan gedir. O qurumdan ki, onun xidmət sahəsi vacib olduğu qədər də təhlükə mənbəyidir. Təsəvvür edin, hansısa abonentin evinə, mənzilinə, yaxud obyektinə qaz sızır və bu halda yeganə əl çatan "104" olur ki, ona da zəng vura bilmir. Nəticəsi, Allah göstərməmiş, ya partlayışdır, ya da boğulma. Təxminən 2 il əvvəl paytaxtda belə partlayış zamanı 4 nəfərlik ailənin 3 üzvünün həlak olmasını unutmaq mümkündürmü?!

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının öhdəsindən gələ bilmədiyi sahə çətin ki, tapılsın. Belə olan halda "Azəriqaz" İB-nin "Çağrı Mərkəzi"nin çağrılara cavab verə bilməməsinə heç nə ilə haqq qazandırmaq mümkün deyil, necə deyərlər, bəraətə bəhanə yeri yoxdur! Odur ki, qaz xətlərinin hansısa məsuliyyətsiz təşkilatlar tərəfindən sıradan çıxarılmasını, hətta aparılan təmir işlərinin ləngiməsini başa düşsək də, "104"ün bu vəziyyətdə olmasını anlaya bilmirik. Və çox istərdik ki, "Azəriqaz"ın rəhbərliyi qəzetimizin tənqidi yazısına operativ cavab verdiyi kimi, "104 Çağrı Mərkəzi"nin də fəaliyyətinə operativ müdaxilə etsin.

***"Azərbaycan"***

## Payızın son anları



*Foto Ağaəli Məmmədovundur*

## Ermənistan silahlı qüvvələrinin bölmələri iriçaplı pulemyotlardan istifadə etməklə atəşkəs rejimini 21 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altındakı Çiləbürt, Ağdam rayonunun Nəmirli, Sarıcalı, Yusifcanlı, Füzuli rayonunun Qərvənd, Aşağı Seyidəhmədli, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

## "Azercell" "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkasına dəstək verir

### Xeyriyyə yarmarkasından toplanan vəsait uşaqların müalicə və əməliyyatlarına sərf ediləcək

6 ildir ki, yeni il ərəfəsində "Nargis Fund" tərəfindən keçirilən və xoş bir ənənəyə çevrilən "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkası bu il də yüzlərlə uşağı sevindirəcək.

Yanvar ayının 6-dək davam edəcək bu xoşməramlı tədbirə fəaliyyəti boyunca gələcəyimiz olan uşaqların müdafiəsi, eləcə də onların hüquqlarının qorunması istiqamətində çoxsaylı layihələr həyata keçirən "Azercell Telekom" MMC də öz dəstəyini əsirgəməyib. Şirkət yarmarkada quraşdırılmış stendindən smartfon əldə edən müştəriləri hədiyyə ilə sevindirəcək. Belə ki, abunəçilər öz istəklərinə uyğun olaraq 1000 şəbəkədaxili dəqiqə və ya 1 aylıq limitsiz internet əldə edə biləcəklər.



Xeyriyyə yarmarkası bu il öz konsepsiyasına görə əvvəlkilərdən daha fərqli və yaddaqalan olacaq. Fəvvarələr meydanında qurulmuş 47 evcikdən hər kəs Yeni il hədiyyələri, suvenirlər, kitablar, geyimlər və s. əldə edə, kiçik rahat kafelərdə çay, kofe, eləcə də digər isti və ya soyuq içkilərdən içə, müxtəlif təamlardan dada bilər. Xeyriyyə yarmarkasından toplanan vəsait ənənəyə uyğun olaraq, müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların müalicə və əməliyyatlarına sərf ediləcək. Yarmarkanın əsas qonaqları olan uşaq evlərinin sakinləri isə əyləncəli proqramlar, maraqlı tədbirlər və sponsorlardan hədiyyələr gözləyir. Məlumat üçün bildirək ki, "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkası haqqında gündəlik xəbərləri nargisfund.com saytından, eləcə də fondun rəsmi sosial şəbəkə resurslarından əldə etmək olar.

***"Azərbaycan"***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Serbiya Kosovodan BMT-yə şikayət etdi



Serbiya Prezidenti Aleksandr Vuçiç Kosovoda milli ordu yaradılmasına görə BMT Təhlükəsizlik Şurasının (TŞ) təcili iclasının çağırılmasımı tələb etmişdir. Bu barədə yerli "Espreso" qəzeti xəbər verir.

Vuçiç televiziya ilə xalqa müraciətində bildirmişdir ki, Kosovo ordusunun yaradılması barədə qərar Priştinanın Belqradla dialoq aparmaq istəmədiyinə dəlalət edir. Ordunun yaradılmasının arxasında isə ABŞ, Böyük Britaniya və Almaniya dayanır.

Prezident Priştina silahlı qüvvələrinin təcavüz edəcəyi təqdirində Kosovo serblərini müdafiə edəcəyini bildirmişdir. Bundan əlavə, Vuçiç Kosovonu ötən ay serb mallarına tətbiq olunmuş 100 faizlik gömrük rüsumunu ləğv etməyə çağırmışdır. Serbiyanın B92 radiostansiyası xəbər verir ki, Vuçiç xalqa müraciət etməzdən əvvəl Rusiyanın Serbiyadakı səfiri Aleksandr Çepurinlə görüşmüş və ondan Moskvanın dəstəyini almışdır.

Xatırladaq ki, srağagün Kosovo parlamenti təhlükəsizlik qüvvələri əsasında Kosovo milli ordusunun yaradılmasına səs vermişdir. Hərbi qulluqçuların sayı 5 min nəfər təşkil etməlidir. Bu, təhlükəsizlik qüvvələrinin şəxsi heyətindən iki dəfə çoxdur. Daha 3 min nəfər ehtiyatda qalacaq. Ordunun yaradılmasına təxminən 10 il lazım olacaq.

Priştina 2008-ci ildə müstəqilliyini elan etmişdir. Kosovonun müstəqilliyini 110 dövlət, o cümlədən ABŞ, Kanada və Avropa İttifaqının əksər ölkələri tanımışdır.

## Şakira 15 milyon avro vergi ödəməməkdə ittiham edilir

İspaniya hökuməti kolumbiyalı estrada ulduzu Şakiranı təxminən 15 milyon avro məbləğində vergi ödəməkdən yayınmaqda ittiham edir. Vergi orqanları tədqiqat keçirdikdən sonra belə bir qənaətə gəlmişdir ki, müğənni 2012-2014-cü illərdə ümumilikdə 14,5 milyon avroya yaxın vergi ödəməmişdir. Bu məbləğdən əlavə, ondan faizlər də tələb olunur. Fiskal orqanların iddiası 19,4 milyon manat təşkil edir. Srağagün Barselona prokurorluğu Şakiraya qarşı altı vergi cinayəti ilə bağlı ittiham irəli sürmüşdür. Məsələn, bildirilir ki, müğənni əslində üç il müddətində həyat yoldaşı, futbolçu Jerar Pike ilə İspaniyada yaşasa da, rəsmi yaşayış yeri kimi Baham adalarını göstərmişdir.



İspaniya qanunvericiliyinə görə, təqsiri sübuta yetiriləcəyi təqdirdə Şakiranı cərimə və ikiillik həbs cəzası gözləyir.

## Şri-Lankanın Baş naziri istefa verdi

Şri-Lankanın Baş naziri Mahinda Racapaksa özünün istefaya getməsi ilə bağlı sənəd imzalamışdır. Bu barədə "News Firts" telekanalı xəbər verir.

Dekabrın əvvəllərində Şri-Lanka Apelyasiya Məhkəməsi Racapaksaya və onun hökumətinə səlahiyyətlərini icra etməyi və Nazirlər Kabinetinin iclaslarını keçirməyi qadağan etmişdir. Baş nazir məhkəmənin qərarından şikayət vermişdir. Dekabrın 13-də Ali Məhkəmə Apelyasiya Məhkəməsinin qərarını qüvvədə saxlamışdır. Srağagün Baş nazirin oğlu Namal Racapaksa bildirmişdir ki, atası vəzifəsini tərk etmək qərarı qəbul etmişdir.

## Nepalda adamları dəfn mərasimindən gətirən yük maşını dərəyə düşdü

Nepalın şərqində, Nuvakot rayonunda yük maşınının dərəyə düşməsi nəticəsində azı 18 nəfər həlak olmuş, 16 nəfər yaralanmışdır. Bu barədə yerli polisə istinadən "Kathmandu Post" qəzeti xəbər verir.

Məlumata görə, hadisə srağagün axşam baş vermişdir. Bir qrup kəndli yerlilərinin dəfnindən sonra evə qayıdırmış. Lakin dağ yolunun mürəkkəb hissəsində sürücü idarəetməni itirmiş və bu səbəbdən avtomobil yoldan çıxaraq 400 metr dərinlikdə dərəyə düşmüşdür.

Polis və hərbçilər qəza yerinə gəlmiş və zərərçəkənləri xilas etmişlər. Onların bəzilərinin vəziyyəti ağırdır. Hazırda yaxınlıqdakı xəstəxanalarda yaralılara tibbi yardım göstərilir. Yük maşınında neçə adamın olduğu hələ də müəyyənləşdirilməyib.

## Çin ABŞ avtomobillərinə əlavə rüsum qoymağı dayandıracaq

Gələn ilin yanvarından etibarən Çin müvəqqəti olaraq ABŞ-da istehsal edilmiş avtomobillərə və ehtiyat hissələrinə tətbiq olunmuş əlavə 25 faizlik gömrük rüsumunun qüvvəsini dayandıracaq. Bu, dünyanın iki ən iri iqtisadiyyatı arasında ticarət müharibəsində barışıqdan sonra mümkün olmuşdur.

Maliyyə Nazirliyinin bəyanatında deyilir ki, Çin və ABŞ-ın bütün əlavə tarifləri ləğv etmək barədə danışıqları sürətləndirə biləcəyinə ümid edir.

ABŞ Prezidenti Donald Tramp bu məlumatı alqışlamışdır. Tramp Twitter səhifəsində yazmışdır: "İndicə Çin elan etmişdir ki, onların iqtisadiyyatı bizim ticarət müharibəmiz üzündən gözlənildiyindən xeyli ləng artır. İndicə onlar tariflərin artırılmasını dayandırdılar. ABŞ-da işlər çox yaxşı gedir. Çin böyük və hərtərəfli saziş imzalamaq istəyir. Bu tezliklə baş verə bilər!"

## Havanın temperaturu enəcək, yağış, qar yağacaq




Sinoptiklər ölkə ərazisində gözlənilən qeyri-sabit hava şəraiti ilə bağlı xəbərdarlıq ediblər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildiriblər ki, Bakıda və Abşeron yarımadasında dekabrın 16-sı gündüzdən 17-si gündüzədək şimal-qərb küləyinin əsəcəyi, arabir güclənəcəyi, havanın temperaturunun enəcəyi gözlənilir. Dekabrın 17-də maksimal hərarətin 5-7° isti təşkil edəcəyi, gündüz bəzi yerlərdə havanın arabir çiskinli olacağı proqnozlaşdırılır. Dekabrın 18-də yağıntının ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var.

Azərbaycanın bölgələrində dekabrın 17-si günün ikinci yarısından 19-dək hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, bəzi yerlərdə intensiv və güclü olacağı ehtimal edilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 5-7° enəcək. Çaylarda sululuğun artacağı bildirilir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev və komitənin kollektivi iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova əzizi

**SÜRƏYYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8412
Sifariş 3725